# Medvedev: Dünya III Dünya Müharibəsi təhlükəsinə yaxınlaşıb



**Xüsusi hərbi əməliyyat məcburi tədbir və ABŞ-ın təcavüzünün hazırlığına cavab oldu.**

APA-nın Moskva müxbiri xəbər verir ki, bunu Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedev öz ”Telegram” kanalında yazıb.

Onun sözlərinə görə, dünya Üçüncü Dünya müharibəsi təhlükəsinə yaxınlaşıb.

Medvedev bildirib ki, Vahid Rusiya Ali Sovetinin Bürosu partiya diplomatiyasının inkişafı haqqında düşünməlidir. O, ”Vahid Rusiya” partiyasının xaricdə ideoloji cəhətdən yaxın partiyalarla dialoq qurmalı olduğunu vurğulayıb.



# Aİ Ukraynaya əlavə 500 milyon avro ayıracaq

**Avropa Sülh Mexanizmi çərçivəsində Ukraynaya əlavə 500 milyon avro ayrılacaq.**

APA xəbər verir ki, bu barədə bu gün Brüsseldə Aİ XİN rəhbərlərinin iclasında siyasi konsensus əldə olunub.

İclasda həmçinin Aİ-nin Ukraynaya Yardım Missiyası (EUMAM) çərçivəsində ukraynalı əsgərlərin təlimi üçün 45 milyon avro ayrılması barədə razılığa gəlinib.


№ 12 (5773), 2023-cü il

Qiyməti 40 qəpik

ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 24 yanvar 2023-cü il (çərşənbə axşamı)




# Azərbaycan vətəndaşları Qazaxıstanda 90 gün vizasız qala biləcəklər

**Qazaxıstanda immiqrantların ölkəyə girişi və qalması ilə bağlı yeni qaydalar 2023-cü il yanvarın 27-dən qüvvəyə minir.**

“Report” inbusiness.kz saytına istinadən xəbər verir ki, bu barədə ölkənin Daxili İşlər Nazirliyi məlumat yayıb. Yeniliklər Qazaxıstana 180 təqvim dövrü ərzində cəmi 90 təqvim günü, ölkədə qalma müddəti dövlət sərhədini keçdiyi andan 30 təqvim günündən artıq olmayaraq vizasız daxil olmaq və tərk etmək hüququna malik 55 ölkənin əcnəbi vətəndaşlarına şamil edilir.

Qazaxıstanda qalma müddəti şəxsin sərhədi keçdiyi andan hesablanır və müvafiq olaraq yanvarın 27-dən sonra ölkəyə daxil olan əcnəbilərə artıq yeni qaydalar tətbiq olunacaq.

Bununla da, Avrasiya İqtisadi Şurasına üzv dövlətlərin (Ermənistan, Belarus, Qırğız Respublikası, Rusiya), həmçinin Azərbaycan, Tacikistan, Ukrayna vətəndaşları 180 gün ərzində 90 gündən çox olmamaqla Qazaxıstan ərazisinə vizasız daxil ola və qala biləcəklər.



# Azərbaycanda pensiyaçılara artıq ödənilmiş vəsait geri alınmayacaq

**Azərbaycanda pensiyaçılara 2020-ci ildən əvvəl verilən artıq ödənişlər geri istənilməyəcək.**

**Bu, Prezident İlham Əliyevin ”Əmək pensiyaları haqqında” qanuna dəyişikliyi təsdiqləməsi ilə mümkün olub.**

Dəyişikliklər əmək pensiyasına (əmək pensiyasına əlavəyə) görə artıq ödənilmiş məbləğin tutulması müddətinin məhdudlaşdırılması, bununla da son üç ildən əvvəlki dövrlə bağlı ödənişə amnistiyanın (güzəştin) tətbiq edilməsi məqsədi daşıyır.

(səh.2)

# Toyvo Klaarın Azərbaycana səfəri planlaşdırılır



**Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz və Gürcüstandakı böhran üzrə xüsusi nümayəndəsi Toyvo Klaar yaxın gələcəkdə Azərbaycana səfər etməyi planlaşdırır.**

Bu barədə xüsusi nümayəndənin mətbuat katibi Anri Dyüken Trend-ə bildirib. Onun sözlərinə görə, T.Klaar artıq Errmənistan rəhbərliyi ilə bir sıra müşavirələr keçirmək üçün ölkəyə səfər edib. ”O həmçinin yaxın gələcəkdə analoji müşavirələr keçirmək üçün Bakıya da səfər etməyi planlaşdırır, lakin dəqiq tarix hələ təsdiqlənməyib”, - katib əlavə edib.

*Xatırladaq ki, hələ bu yaxında Aİ-nin xüsusi nümayəndəsi Bakıya səfəri çərçivəsində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla görüşərək Azərbaycan-Ermənistan münasibətlərini normallaşdırma səyləri, həmçinin mümkün növbəti addımlar mövsuzunda müzakirələr aparıb. Bundan başqa, Avropa İttifaqının rəsmilərinin məlumatına görə, Aİ-nin 27 ölkəsinin xarici işlər nazirləri bugünkü iclasda Aİ-nin Ermənistana yeni missiyasını təsdiqləmək niyyətindədir ki, avropalı diplomatların fikrincə, bu da regionda vəziyyətin tənzimlənməsinə kömək etməlidir.*

# Gərginlik artacaq

## Aİ-nin Ermənistana 2 illik müddətə xüsusi missiya göndərməsi arzu olunan deyil



**Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Tovio Klaar Ermənistana səfər edib.**

Səfərdə Ermənistan rəsmiləri ilə Laçın yolundakı durum və regional məsələlər müzakirə olunub. Vurğulanıb ki, Avropa İttifaqının məqsədi Ermənistanla Azərbaycan arasında hərtərəfli həll yoluna nail olmaqdır.

Xatırladaq ki, Aİ-nin Cənubi Qafqaz üzrə təmsilçisi sonuncu dəfə ötən ilin dekabrında Ermənistana səfər edib. Avropa İttifaqı 1 aydan sonra Ermənistana yeni müşahidə missiyası göndərəcəyini açıqlayıb. Ancaq bu dəfə missiya 2 aylıq deyil, 2 illik müddətə göndəriləcək. Missiya fevralın 20-də fəaliyyətə başlayacaq. Eyni zamanda əvvəlki 40 nəfərlik qrupdan fərqli olaraq, budəfəki missiya bütün Ermənistan ərazisini əhatə edəcək. Missiya üzvlərinin 200 nəfərdən ibarət olacağı deyilir.

(səh.3)

# 320 manat təqaüdlə nə etsinlər?

## Deputatlar həkim və müəllimlərin pensiya yaşına etiraz ediblər



**“Vətəndaş artıq ödənilən pensiyanı alıb xərcləyibsə, özü də qaytaracaq”.**

Bunu Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclasında komitə sədri Musa Quliyev deyib. O bildirib ki, pensiyaların artıq ödənilməsində məsuliyyət daşıyan qurumların əməkdaşları məsuliyyətə cəlb olunacaq:

”Artıq ödənilən pulun qaytarılmasına gəlincə, son 3 il üçün amnistiya tətbiq olunub. 3 ildən əvvələ gəlincə, vətəndaş artıq ödənilən pensiya məbləğini alıb xərcləyibsə, vətəndaş da qaytaracaq. Ən çox yanlış ödəmələr 2020-ci ilə qədər olub.

(səh.3)



# Bu günə qədər...

## Qərbi Azərbaycandan deportasiya olunan 100 min nəfər qeydiyyata alınıb

**“Qərbi azərbaycanlıların siyahıya alınması prosesi davam edir”.**

Bunu jurnalistlərə açıqlamasında Qərbi Azərbaycan İcmasının Mətbuat xidmətinin rəhbəri Ülviyyə Zülfiqar deyib.

O bildirib ki, bu günə qədər 100 mindən çox şəxs qeydiyyata alınıb: ”Hər gün 250-300 nəfər qeydiyyata düşmək üçün müraciət edir. Hətta kök evi Qərbi Azərbaycan olanlar da siyahıya alınır. 1988-1991-ci illərdə deportasiya olunanlardan 100 min nəfər qeydiyyata alınıb. Həmçinin daha əvvəl deportasiya olunanların varislərindən də qeydiyyata alınanlar var”.

# Deputat narazıdır

## “Azərbaycanda meyxana yolu ilə cinayətkar kult formalaşdırıb İranın ideoloji istəklərinə xidmət edirlər”



**“Azərbaycanda meyxana yolu ilə yeni bir cinayətkar kult formalaşdırıb İranın ideoloji istəklərinə xidmət edirlər”.**

Bunu Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədr müavini Sahib Alıyev deyib.

Deputat ehtimalla bildirib ki, yəqin bu yöndə fəaliyyət göstərən QHT-lər də var:

”Ona görə də ayrıca olaraq onlarla görüşə ehtiyac ola bilər”.

Komitənin sədri Fəzail İbrahimli isə xatırladıb ki, Milli Məclisin funksiyası qanunvericiliklə məşğul olmaqdır:

”Aidiyyəti qurumlar kimin ayaqqabısının ölçüsü neçədir, ona qədər bilirlər və bütün işlər nəzarət altındadır”.

# Bakıda yaşayış binası qəzalı vəziyyətə düşüb

## 133 yaşlı bina hər an uça bilər

**Tavanı uçur, pilləkən və mərtəbələrin döşəmələri sökülür, divarında böyük çatlar var.**



Paytaxtın Suraxanı rayonundakı 133 yaşlı bina yararsız vəziyyətdədir. Hər an uça bilər.

Əmircan qəsəbəsində Zahid Əliyev küçəsində yerləşən bina uzun müddətdir ki, bu vəziyyətdədir.



# Tbilisi Qərbin maraqları əsasında hərəkət edir

Ancaq Gürcüstanın Azərbaycanla Ermənistan arasındakı vasitəçilik təklifləri onun müstəqil iradəsinin məhsulu deyil

(səh.3)



# Təcili tibbi yardım avtomobillərində yoxlamalar aparılmır

Böyük ehtimalla Laçın yolunda erməni “qanuni oğru”lar “ağır xəstə” adı ilə Ermənistana keçə biliblər

(səh.2)



# Azərbaycanda pensiyaçılara artıq ödənilmiş vəsait geri alınmayacaq

**Azərbaycanda pensiyaçılara 2020-ci ildən əvvəl verilən artıq ödənişlər geri istənilməyəcək.**

**Bu, Prezident İlham Əliyevin "Əmək pensiyaları haqqında" qanuna dəyişikliyi təsdiqləməsi ilə mümkün olub.**

Dəyişikliklər əmək pensiyasına (əmək pensiyasına əlavəyə) görə artıq ödənilmiş məbləğin tutulması müddətinin məhdudlaşdırılması, bununla da son üç ildən əvvəlki dövrlə bağlı ödənişə amnistiyanın (güzəştin) tətbiq edilməsi məqsədi daşıyır. Yəni artıq ödənilmiş əmək pensiyasının və əmək pensiyasına əlavənin məbləğinin tutulmasında müddətli amnistiyanın tətbiqini nəzərdə tutur. Yəni əgər pensiyaçıya fərqli səbəblərdən 2020-ci ildən əvvəl artıq ödəniş olubsa, yeni dəyişikliklərə əsasən həmin ödəniş geri istənilməyəcək. Dəyişikliklər 2020-ci ildən əvvəlki dövrə amnistiyanın verilməsini nəzərdə tutur.

Qaydalara əsasən, artıq ödənilmiş əmək pensiyası və əmək pensiyasına əlavənin məbləği əmək pensiyaçısından əmək pensiyaçısının razılığı ilə əmək pensiyasını təyin edən orqanın qərarı əsasında, razılığı olmadıqda isə məhkəmə qaydasında yalnız aşağıdakı hallarda tutulur:

- rüşvət, hədə-qorxu və ya aldatma yolu ilə artıq məbləğdə əmək pensiyasının və əmək pensiyasına əlavənin təyin olunmasına nail olduqda;
- qəsdən təhrif olunmuş məlumatları əks etdirən sənədlər təqdim etməklə artıq məbləğdə əmək pensiyasının və əmək pensiyasına əlavənin təyin olunmasına nail olduqda;
- inzibati aktın qanunsuz olduğunu bildiyi və ya kobud ehtiyatsızlıq nəticəsində bilmədiyi halda.

Bundan başqa, artıq ödənilmiş əmək pensiyasının və əmək pensiyasına əlavənin məbləğinin əmək pensiyaçısından tutulduğu hallar istisna olmaqla, digər hallarda vəzifəli şəxsin təqsiri, yəni kobud ehtiyatsızlığı və ya qəsdi nəticəsində artıq ödənilmiş əmək pensiyası və əmək pensiyasına əlavənin məbləği həmin vəzifəli şəxsdən onun razılığı ilə, belə razılıq olmadıqda isə məhkəmə qaydasında tutulur.

Eyni zamanda geri ödəniləcək vəsait hər ay əmək pensiyaçısına ödənilməli olan məbləğin 10 faizindən az, 20 faizindən artıq ola bilməz.

*Qanun 2023-cü il yanvarın 1-dən qüvvəyə minib.*

# Milli standartlaşdırma sisteminə dair Dövlət Proqramı təsdiq edilib



**"Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023-2025-ci illər üçün Dövlət Proqramı" təsdiq edilib.**

Bu barədə Prezident İlham Əliyev Sərəncam imzalayıb.

İqtisadiyyat Nazirliyinə Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasını əlaqələndirmək və Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrası barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat vermək tapşırılıb.

Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirəcək.

*Nazirlər Kabinetinə bu Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.*

# Erməni din xadimləri öz mənsublarını müharibəyə çağırırlar

## Əslində səmavi dinlər, müqəddəs kitablar öz ardıcıllarını sülhə və birgəyaşayışa dəvət edir

**"Livandakı Böyük Kilikiya kilsəsinin katalikosu I Aramın ermənilərə müharibə ilə bağlı çağırış etməsi erməni dini liderlərinin sülh və əminamanlığın təmin edilməsi üçün çalışmaq əvəzinə, onları revanşizmə və müharibəyə səslədiyini bir daha göstərir".**

*Bu barədə millət vəkili Ceyhun Məmmədov deyib. Deputat bildirib ki, bu həm də onu göstərir ki, erməni kilsəsi və din xadimləri öz "ənənələrinə" sadiq qalaraq Azərbaycan xalqına qarşı düşmənçiliyi, kini və küdurəti alovlandırmağa davam edirlər:* "Birinci Qarabağ müharibəsi zamanı da erməni keşişləri Azərbaycana qarşı ədavətin qızışdırılmasında əsas aparıcı rolu oynayırdılar. İkinci Qarabağ müharibəsində də onlar əllərinə avtomat alaraq erməni xalqına pis nümunə oldular. Bu, eyni zamanda erməni dini liderlərinin məsuliyyət hisslərini itirdiyini, bölgəmizdə kövrək sabitliyin pozulması üçün səylə çalışdıqlarını təsdiq edir. Əslində səmavi dinlər, müqəddəs kitablar öz ardıcıllarını sülhə və birgəyaşayışa dəvət edir. Erməni din xadimləri isə öz mənsublarını müharibəyə çağırırlar. Bu yanaşma ilə onlar öz dinlərinin də prinsiplərini pozur, ona xəyanət edirlər. Yalançı və saxtakar din xadimi olduqlarını bütün dünyaya göstərirlər".



Erməni kilsəsi və din xadimləri Azərbaycan xalqına qarşı düşmənçiliyi, kini və küdurəti alovlandırmağa davam edir

**C.Məmmədov qeyd edib ki, erməni keşişləri anlamalıdırlar ki, bu çağırışlar erməni xalqına yeni faciə və müsibətlər yaşada bilər:** "Əslində ermənilər 44 günlük müharibədən ciddi nəticə çıxararaq bir də müharibə barədə düşünməməli idilər. Azərbaycanın bölgədə yaratdığı yeni reallıq fonunda bölgəyə sülhün gəlməsi üçün əlverişli imkan yaranmışdı. Ermənilər, erməni din xadimləri bu imkanı da düzgün dəyərləndirə bilmədilər. Bu fürsətin düzgün dəyərləndirilməməsinə görə məsuliyyəti həm də cinayətkar erməni kilsəsi daşıyır. Onlar müharibənin erməni xalqına yeni faciələr gətirəcəyini bilə-bilə müharibəyə növbəti dəfə çağırış edirlər".

**İsmayıl**

# Ermənistan yeni təxribatlara da əl ata bilər

## Paşinyanın ölkə daxilində islahatlar keçirməsi heç də Azərbaycana qarşı loyal münasibət ortaya qoymur



**"Ermənistan Baş naziri Nikol Paşinyan aprel ayında Konstitusiya referendumu keçirməsini gündəliyə çıxarıb".**

*Bu barədə "Şərq"ə açıqlamasında politoloq Məhəmməd Əsədullazadə deyib. Analitik bildirib ki, hazırda Ermənistan Respublikasının Konstitusiyasına uyğun olaraq Azərbaycanla sülh müqaviləsinin bağlanması və ölkəmizin ərazi bütövlüyünün tanınması "hüquqi" cəhətdən mümkün deyil:*

"Yalnız baza sənədi imzalana bilər. Bu da ölkəmiz üçün Ermənistan kimi anti-Azərbaycan siyasətə malik bir ölkə ilə qeyri-mümkündür. Ermənistanın qüvvədə olan Konstitusiyasina görə Azərbaycana və Türkiyəyə qarşı ərazi iddiaları, xüsusilə Qarabağın bu ölkəyə birləşdirilməsi qeyd edilib. Belə olan təqdirdə sülhün əldə edilməsi hüquqi cəhətdən mümkün deyil. Ermənistan Baş naziri Nikol Paşinyan deyir ki, İrəvan Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Amma Ermənistan Konstitusiyasında bu, belə deyil. Ermənistan tərəfi o zaman sülh müqaviləsində səmimi olar ki, referendumda Azərbaycana qarşı ərazi iddialarını özündə ehtiva edən bəndləri çıxarsın. Bundan əlavə, Ermənistan parlament respublikasını ləğv edib, prezident üsul-idarəsinə keçəcək. Paşinyan növbədənkənar prezident seçkilərinə gedib, prezident seçilərək mövqeyini möhkəmləndirməsi istiqamətində islahatlar aparacaq".

*Ekspert hesab edir ki, Ermənistan konstitusiyasında dəyişikliklərlə Azərbaycan və Türkiyəyə qarşı ərazi iddiaları çıxarılarsa, növbəti mərhələdə sülh müqaviləsinin bağlanması mümkün olar:* "Ermənistanın yeni konstitusiyasında və hərbi doktrinasında dəyişikliklər edilməklə Rusiyanın bu ölkədə mövqeyinin güclənməsinin qarşısı alınacaq. Paşinyanın ölkə daxilində islahatlar keçirməsi heç də Azərbaycana qarşı loyal münasibət ortaya qoymur. Ermənistan yeni təxribatlara da əl ata bilər. İrəvanın hərbi hədəfi Cermux şəhərinin ətrafından Azərbaycan qoşunlarını geri atmaqdır. Buna cəhd etsələr, Ermənistan ərazi itkilərinə məruz qalacaq. Çünki Cermux rayonunun ətrafında yüksəkliklər Azərbaycan ərazisidir və şərti sərhədlər bu istiqamətdən başlayır".

**İsmayıl**

# Təcili tibbi yardım avtomobillərində yoxlamalar aparılmır

## Böyük ehtimalla Laçın yolunda erməni "qanuni oğru"lar "ağır xəstə" adı ilə Ermənistana keçə biliblər




**"Erməni mənbələr sülhməramlıların Laçın yolunda aksiyanın başlanmasından sonra Qarabağda qalan iki erməni kriminal avtoriteti gizli yolla Ermənistana keçirdiyini iddia edirlər".**

Bu barədə siyasi şərhçi Asif Nərimanlı deyib. Analitik qeyd edib ki, bunun qarşılığında sülhməramlılar 10 min dollar ödəniş alıb: "Lakin avtoritetlərin adı və aksiya keçirilən ərazidən hansı formada keçirildiyi qeyd olunmur. Laçın yolundan qeyri-qanuni məqsədlər üçün istifadə etmək təcrübəsi fonunda bu iddianın real olması mümkündür və "qanuni oğru"ların hansı formada keçə biləcəyi ehtimallarını da önə çıxarır. Sülhməramlı hərbçilərin formasında aksiya keçirilən ərazidən keçə bilərlər. Təcili tibbi yardım avtomobilində "ağır xəstə" adı ilə çıxa bilərlər. Sülhməramlıların yük avtomobillərində gizlənərək, gedə bilərlər. Hər üç versiya istisna deyil".

**Ekspert vurğulayıb ki, "ağır xəstə" adı ilə çıxarılmaları daha çox mümkün görünür:** "Aksiya iştirakçıları Qarabağa aparılan humanitar yüklərə, bu yükləri daşıyan sülhməramlılara yol açdıqları kimi, Qarabağdan xəstələrin Ermənistana aparılmasına da şərait yaradır. Xüsusilə Qarabağdan "ağır xəstə" aparmaq adı ilə keçən təcili tibbi yardım avtomobillərində yoxlamalar aparılmır. Böyük ehtimalla erməni "qanuni oğru"lar "ağır xəstə" adı ilə təcili tibbi yardım avtomobilində keçə biliblər. Xəstələrin aparılması prosesində əsas işi Qırmızı Xaç Komitəsi həyata keçirir. Kriminal avtoritetlərin keçidindən komitənin məlumatlı olub-olmadığını demək çətindir. Lakin onlar öncədən "ağır xəstə" olaraq "qeydiyyata" da düşə bilərlər".

**İsmayıl**

# Xankəndi Azərbaycandır!

## Laçın-Şuşa yolundakı mübarizə məntiqi sonluğuna çatacaq




**Ekofəallarımızın və QHT nümayəndələrimizin Laçın-Şuşa yolunda 40 gündən artıq davam edən və Qarabağdakı separatçıların oyunlarını pozan etiraz aksiyası ilə bağlı fərqli mülahizələr gündəmə gəlməkdədir.**

Ən çox səslənən suallardan biri aksiyanın nə zaman bitəcəyi ilə bağlıdır. Əksəriyyət düşünür ki, rəsmi Bakının qızıl və mis-molibden yataqları ilə bağlı tələbləri icra edilmədiyi təqdirdə aksiyaya son verilməsi məqsədəuyğun olmazdı. Millət vəkili Fazil Mustafa da aksiya ilə bağlı öz yanaşmasını ortaya qoyub. Deputat bildirib ki, ekologiyamızın sağlamlığı üçün fəaliyyət göstərən QHT-miz gecə-gündüz Laçın-Xankəndi yolunda qar deməden, sazaq deməden fədakarlıq göstərirlər. Onun sözlərinə görə, artıq 41 gündür ki, Vətən növbəsindədirlər: "44 gündə savaşı qazandıq. Bəlkə burada da 44 günün tamamında yola dövlətimizin nəzarət postlarını tam şəkildə yerləşdirib müqəddəs işimizə ikinci vacib nöqtəni qoyaq? 44 rəqəmini hər dəfə təkrar olaraq gündəmə gətirdikcə erməni separatçılarını bir daha pəjmürdə edə bilərik. İşin sonunda Xankəndidə 44 nəfər erməni qalacaq".

**Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli "Şərq"ə bildirib ki, Qarabağ ərazisində ekoloji problemlərə nəzarət etmək tələbi bizim təbii haqqımızdır. Partiya təmsilçisi vurğulayıb ki, Qarabağa və bölgədən Ermənistana gedən Laçın yoluna Rusiyanın hərbi kontingentinin nəzarət etməsi o demək deyil ki, Azərbaycanın müvafiq strukturları öz ərazilərində istənilən monitorinqi keçirmək üçün kimdənsə izn almalıdır:** "Aksiyaçıların tələbləri çox normaldır. Onlar sözügedən ərazidə monitorinqlərə razılıq verilməsini tələb edirlər. Düşünürəm ki, nəticə əldə olunana qədər aksiyalar davam etməlidir və edəcək. Azərbaycanın məqsədi sadəcə yataqların monitorinqi deyil. Digər məqsəd Ermənistanla Qarabağı birləşdirən yolu nəzarətə götürməkdir. Bir müddətdən sonra ekoloqların etirazına fasilə verilsə belə fəalların əvəzinə yolun həmin hissəsində Azərbaycan hərbçiləri post qurar və Qarabağa daxil olan, yaxud çıxan nəqliyyat vasitələrini yoxlamağa başlayarlar. Bu, 2020-ci ilin 9 noyabr bəyanatına zidd deyil. Yol bağlanmır, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində nəzarətə götürülür. Xankəndi, Xocalı, Ağdərə, Xocavənd şəhərləri, Şuşa, Xocalı, Xocavənd rayonlarının və keçmiş Ağdərə rayonunun bir hissəsində məskunlaşan ermənilər anlamalıdır ki, onların taleyi öz əllərindədir. Vardanyan və onun kimi təxribatçı qüvvələr nə qədər ki var, onların rahat yaşaması mümkün olmayacaq. Ermənilərin də bu aksiyadan anladıqları nəticə bu olmalıdır ki, Xankəndi Azərbaycandır!".

Bir müddətdən sonra ekofəalların əvəzinə yolun həmin hissəsində Azərbaycan hərbçiləri post quracaq

**İsmayıl Qocayev**



# 320 manat təqaüdlə nə etsinlər?

## Deputatlar həkim və müəllimlərin pensiya yaşına etiraz ediblər

**”Vətəndaş artıq ödənilən pensiyanı alıb xərcləyibsə, özü də qaytaracaq”. Bunu Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclasında komitə sədri Musa Quliyev deyib. O bildirib ki, pensiyaların artıq ödənilməsində məsuliyyət daşıyan qurumların əməkdaşları məsuliyyətə cəlb olunacaq:**

”Artıq ödənilən pulun qaytarılmasına gəlincə, son 3 il üçün amnistiya tətbiq olunub. 3 ildən əvvələ gəlincə, vətəndaş artıq ödənilən pensiya məbləğini alıb xərcləyibsə, vətəndaş da qaytaracaq. Ən çox yanlış ödəmələr 2020-ci ilə qədər olub. 2020-ci ildən sonra isə çox cüzi artıq pensiya ödəmələri olub”.

**“Vətəndaş artıq hesablanmış pensiyanı elə-belə almayıb”**

**Deputat Jalə Əliyeva bildirib ki, qanunvericiliyə son dəyişikliyə əsasən, artıq ödənilən pensiyaların yalnız son 3 ildə ödənilən hissəsinə amnistiya tətbiq ediləcək:** ”Ancaq 3 ildən əvvəl ödənilən artıq pensiyanı niyə vətəndaş təkbaşına ödəməlidir? Bu pensiyanın artıq ödənilməsində həkim komissiyasının, müvafiq dövlət qurumunun nümayəndələrinin bilavasitə iştirakı olub, onlar da bu vəsaitin geri qaytarılmasına cəlb olunmalıdır”.

**“Dövlət büdcəsindən maliyyələşən işçilərin pensiya yaşı 65-dir”**

**Parlament həkim və müəllimlərin 65 yaşında pensiyaya göndərilməməsi ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə müzakirə aparacaq.** Deputat Məlahət İbrahimqızı bildirib ki, qanunvericiliyə əsasən, dövlət büdcəsindən maliyyələşən işçilərin pensiya yaşı 65-dir. 65 yaşı tamam olan mütəxəssislər avtomatik işdən çıxarılır: ”Avropa ölkələrində həkimlər 70 yaşa qədər işdə saxlanılır. Səhiyyə sahəsində təkcə Bakı şəhərində kifayət qədər həkim və tibb işçilərinin vakansiyası var. 65 yaşlı həkim pensiyaya görə işdən çıxarılırsa, 320 manat təqaüdlə nə etsin? Elə təhsil işçiləri barədə də bunu demək istəyirəm”. Deputat qeyd edib ki, son vaxtlar pensiya yaşına çatanların işlə bağlı müddəti 3 ay, 6 ay uzadılır: ”Bu da rüşvətə yol açır. Pensiyaya çıxanları bölgələrdə işlə təmin etsinlər, bölgələrdə kifayət qədər vakansiyalar var. Heç olmasa, 65 yaşdan yuxarı həkimləri rayonlara göndərərlər”.

**“Mən heç 70 yaş senzinin qoyulmasının da tərəfdarı deyiləm”**

**Komitənin sədri Musa Quliyev də bildirib ki, yaş insanın əmək fəaliyyətinə əngəl ola bilməz:** ”İnsanın sağlamlığı, bilik və bacarığı imkan verirsə, insan əmək fəaliyyətini davam etdirə bilər. Necə ola bilər ki, özəl sektorda 65 yaşı olan həkim işləyə bilər, ancaq dövlət sektorunda işləyə bilməz. Heç olmasa, sertifikasiya kimi imtahan da keçirilə bilər. Mən heç 70 yaş senzinin qoyulmasının da tərəfdarı deyiləm. Bu yaxınlarda bir simpoziumda müəllimlərlə bağlı da belə məsələ qaldırıldı. Müvafiq qurumlarla, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə bu məsələ müzakirə edilə bilər”.

**“Fəxri fərman verilən işçiyə 1 ay sonra təzə müdir deyir ki, səninlə işləmək istəmirəm”**

**Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclasında komitə sədrinin müavini Məlahət İbrahimqızı bildirib ki, ən çox əziyyət çəkilən məsələlərdən biri ixtisarlarla bağlıdır:** ”Bununla bağlı bizə çoxlu sayda müraciətlər olur. Dövlət qurumlarından bir siyahı alaq, görək ki, son 3 ildə, yaxud 2022-ci ildə nə qədər dövlət qulluqçusu ixtisar olunub. İxtisarların çoxunun süni olduğu görünür. İşçiyə təşəkkür, fəxri fərman verilir, 1 ay sonra təzə müdir gəlir, deyir ki, səninlə işləmək istəmirəm. Biz ixtisar olunmuş dövlət qulluqçularının problemlərinin araşdırılması üçün müvafiq qurumlarla dinləmə keçirsək, yaxşı olar”.

**“Cəmiyyətdə əhval-ruhiyyə yaranmasın ki, adam evdə oturmalı, dövlət də xərcləməyə pul verməlidir”**

**Deputat Musa Quliyev qeyd edib ki, cəmiyyətdə əhval-ruhiyyə yaranmasın ki, adam evdə oturmalı, dövlət də xərcləməyə pul verməlidir:** ”Biz aktiv sosial müdafiə tədbirlərinə üstünlük verməyə çalışmalıyıq. Bəzən sosial şəbəkələrdə populist çıxış edərək özlərinə xal qazanmaq istəyən siyasətçilər həmişə passiv sosial müdafiə amillərini önə çəkirlər. Yəni dövlət versin, mən də xərcləyim. Biz əslində aktiv sosial müdafiədən, məşğulluqdan, yeni iş yerlərinin açılmasından, əməkhaqqının yüksəldilməsindən, işçinin hüquqlarının genişləndirilməsindən danışmalıyıq. Həmişə bu məsələlərə diqqət çəkməliyik ki, cəmiyyətdə də belə əhval-ruhiyyə yaranmasın ki, elə adam oturmalıdır evində, dövlət ona pul verməli, o da xərcləməlidir. Necə ki, ünvanlı sosial yardım nə qədər insanı ələbaxımlı öyrətmişdi”.

**“Minimum əmək pensiyalarının artımı 100 mindən çox vətəndaşı əhatə edəcək”**

**Parlament üzvü Musa Quliyev deyib ki, minimum əmək pensiyalarının artımı 100 mindən çox vətəndaşı əhatə edəcək.** O qeyd edib ki, əmək pensiyalarının minimum məbləğinin artırılması ölkədə həyata keçirilən sosial islahatların tərkib hissəsidir və əhalinin sosial rifahının yüksəlməsinə xidmət edir.

**İsmayıl**

# Gərginlik artacaq

## Aİ-nin Ermənistana 2 illik müddətə xüsusi missiya göndərməsi arzu olunan deyil



**Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Tovio Klaar Ermənistana səfər edib. Səfərdə Ermənistan rəsmiləri ilə Laçın yolundakı durum və regional məsələlər müzakirə olunub. Vurğulanıb ki, Avropa İttifaqının məqsədi Ermənistanla Azərbaycan arasında hərtərəfli həll yoluna nail olmaqdır.**

Xatırladaq ki, Aİ-nin Cənubi Qafqaz üzrə təmsilçisi sonuncu dəfə ötən ilin dekabrında Ermənistana səfər edib. Avropa İttifaqı 1 aydan sonra Ermənistana yeni müşahidə missiyası göndərəcəyini açıqlayıb. Ancaq bu dəfə missiya 2 aylıq deyil, 2 illik müddətə göndəriləcək. Missiya fevralın 20-də fəaliyyətə başlayacaq. Eyni zamanda əvvəlki 40 nəfərlik qrupdan fərqli olaraq, budəfəki missiya bütün Ermənistan ərazisini əhatə edəcək. Missiya üzvlərinin 200 nəfərdən ibarət olacağı deyilir.

**Milli Cəbhə Partiyasının sədr müavini Tural İrfan ”Şərq”ə açıqlamasında vurğulayıb ki, Rusiya sülhməramlılarının müvəqqəti olaraq bölgədə yerləşməsi 10 noyabr sənədinə əsasən tərəflər arasında razılaşdırılıb. Ekspertə görə, ikinci bir missiyanın məsələyə razılıq olmadan qarışması gərginlik yarada bilər:** ”Ələlxüsus da Qərblə Rusiyanın münasibətlərinin gərgin olduğu bir dönəmdə bu addım qəbuledilməzdir. Ümumiyyətlə, biz istəyirik ki, bu məsələni kənar müdaxilələr olmadan özümüz həll edək. Söhbət Azərbaycan ərazisindən gedirsə, torpaqlarımıza üçüncü qüvvələrin qarışması məqbul hesab edilmir. Avropa İttifaqı prosesdə rol almağa çox həvəslidirsə, yaxşı olar ki, Ermənistana təzyiq göstərsin. Aİ çox gözəl bilir ki, Xankəndi yolundakı aksiyanın keçirilmə səbəbi Azərbaycan ərazisindəki sərvətlərin separatçılar və kənar güclər tərəfindən talanmasıdır. Ancaq Aİ və bənzər Qərb strukturlarından səs çıxmır. Görünür, hansısa Avropa şirkətlərinin də sərvətlərimizin talanmasında rolu var. Digər yandan hər bir missiyanın, komissiyanın yaradılması və fəaliyyəti qəti şəkildə Azərbaycanla razılaşdırılmalıdır. Çünki adətən belə qurumlar Azərbaycan-Ermənistan arasında münasibətlərin normallaşdırılmasından daha çox öz maraqlarına xidmət edirlər. Qərbin də etiraf etdiyi kimi, Qarabağ Azərbaycandır və Azərbaycanın daxilindəki hər hansı məsələni də bu dövlət özü həll etməlidir. O baxımdan yersiz müdaxilə, ələlxüsus da razılıq olmadan müdaxilə münasibətlərin kəskinləşməsinə səbəb ola bilər”.

**İsmayıl Qocayev**

# Tbilisi Qərbin maraqları əsasında hərəkət edir

**”Qafqazın üç ölkəsi səylərini birləşdirsə, region daha təhlükəsiz olar”. Bu fikirləri Prezidenti İlham Əliyev yanvarın 19-da Davos Dünya İqtisadi Forumu çərçivəsində keçirilən ”Avrasiya Orta Dəhlizi:**

Yoldan magistrala” mövzusunda panel iclasında bildirib. Dövlət başçısı təəssüflə qeyd edib ki, Ermənistan sülh sazişinin imzalanması ilə bağlı rəsmi Bakının təklifinə cavab verməyib: ”Bu, çox sadə, beynəlxalq hüququn təməl prinsiplərinə əsaslanan saziş olacaqdı. Komissar Hanın eyhamı o oldu ki, burada Ermənistan yoxdur. O dedi ki, burada Cənubi Qafqazın iki ölkəsi iştirak edir, ancaq orada üç dövlət var. Mən onun kimi nəzərdə tutduğunu bilirəm. Ancaq Ermənistan burada niyə yoxdur? Çünki bizim Gürcüstanla birlikdə irəli sürdüyümüz üçtərəfli əməkdaşlıq formatı Ermənistan tərəfindən rədd edildi”. Prezident Gürcüstan Baş naziri İrakli Qaribaşvilinin səylərini yüksək qiymətləndirdiyini açıqlayıb: ”Onun himayəsi altında Gürcüstan xarici işlər nazirinin iştirakı ilə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşü təşkil edildi. Bizim təklifimiz ondan ibarət idi ki, Gürcüstanda liderlərin görüşü təşkil olunsun. Çünki tarixən Gürcüstan bütün qonşuların bir araya gəldiyi ölkə olub. Lakin Ermənistan buna hazır deyil. Bu, potensial risklərdən biridir”.



Gürcüstanın Azərbaycanla Ermənistan arasındakı vasitəçilik təklifləri onun müstəqil iradəsinin məhsulu deyil

Gürcüstan parlamentinin vitse-spikeri Giya Volski də deyib ki, Gürcüstan Ermənistan və Azərbaycan arasında danışıqlar üçün ən yaxşı platformadır. O qeyd edib ki, onun ölkəsi həm İrəvan, həm də Bakı ilə xüsusi münasibətlərə sahibdir: ”Ermənistan və Azərbaycan arasında münasibətlərin nizamlanmasında Gürcüstanın rolu, əlbəttə ki, xüsusi əhəmiyyət kəsb edir, xüsusən də bu, beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənir”. Onun sözlərinə görə, regionu hərbi eskalasiyadan xilas etmək Tbilisinin maraqlarına uyğundur və tərəflər məhz bunun ətrafında birləşməlidir. Öz növbəsində hakim Gürcü Arzusu Partiyasından olan deputat Mixail Sarjveladze qeyd edib ki, Gürcüstan Cənubi Qafqazda sülhün əldə olunmasında maraqlıdır və üzərinə konkret öhdəliklər götürməyə hazırdır: ”Hər kəs moderasiyanın mürəkkəbliyini başa düşür, bu məsələ sadə deyil. Bununla belə, tərəflərin və moderatorun bizim regionda sabitliyin və sülhün olmasını təmin etmək istəyi yaxşı ilkin şərtdir”.

**Siyasi şərhçi Aqşin Kərimov ”Şərq”ə deyib ki, ”Avrasiya Orta Dəhlizi: Yoldan magistrala” mövzusunda panel iclası Avropa İttifaqının Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli əməkdaşlığına töhfə verən missiyasının davamı kimi şərh etmək olar. Analitik bildirib ki, müzakirələrin cövhərini Azərbaycanın Avropanın enerji bazarlarındakı rolunun artması, qarşıda duran çağırışlar, yeni layihələrin canlandırılması təşkil edib:** ”Çıxışlar daha çox enerji sektorundakı amillər üzərində olsa da, həmin cümlələrin ruhunda təhlükəsizlik, kollektiv müdafiə siyasəti üçün səylərin birləşdirilməsi barədə tezislər mövcud idi. Çünki Davosdakı bu panel iclas Rusiya-Ukrayna müharibəsinin qlobal nəticələrinin aydınlaşmasına və münaqişənin Cənubi Qafqaz, Mərkəzi Asiya ölkələrinə hansı təzyiqlər yaratmasına verilən reaksiyalar zəncirinin həlqəsi idi. Dövlət başçısı İlham Əliyev regional təhlükəsizlik sferasında Ermənistanın zərərli mövqedə dayandığına bir daha işarələr etdi. İrəvanın Bakı ilə sülh prosesindən qaçdığını göstərdi. Ölkə rəhbəri dedi ki, ”Ermənistan Azərbaycanın sülh sazişinin imzalanması ilə bağlı təkliflərinə cavab verməyib. Ermənistan Gürcüstanın vasitəçiliyi ilə Tbilisidə liderlər səviyyəsində görüş keçirilməsi təklifini rədd edib. Əgər üç Qafqaz ölkəsi enerji, nəqliyyat, təhlükəsizlik, sabitlik, sərhədlərin delimitasiyası sahəsində səylərini birləşdirsə, region daha təhlükəsiz olar”. Bu ideallar Avropa İttifaqı və Türkiyə üçün lazımdır. Hərçənd ki, NATO-nun lideri ABŞ-nin, ona əks qütbdə dayanan Rusiyanın mövqeyi Azərbaycan-Gürcüstan-Ermənistan üçbucağının çəkilməsində böyük maneələrdir”.

**A.Kərimov qeyd edib ki, Gürcüstanın Azərbaycanla Ermənistan arasındakı vasitəçilik təklifləri onun müstəqil iradəsinin məhsulu deyil:** ”Tbilisi bu məsələdə Qərbin maraqlarının tələbləri əsasında hərəkət edir. Lakin Gürcüstandakı hökumətin Rusiyadan çəkinməsi onu Moskvanın da maraqlarını nəzərə almağa vadar edir. Bununla da Azərbaycan-Ermənistan liderlərinin görüşünün mümkün Tbilisi formatı Qərblə Rusiya arasındakı rəqabəti də tənzimləyə bilən xassəyə malikdir. Ancaq Azərbaycan və Türkiyə Gürcüstanın NATO ilə Rusiyanın didişmə poliqonu xarakteri qazanmaması üçün əllərindən gələni edirlər. Bu baxımdan Tbilisi formatı elə qurulmalıdır ki, Gürcüstan Rusiyanın hədəfinə gəlməsin”.

**İsmayıl Qocayev**

# Avropada ən dərin izi məhz türklər buraxıblar

## Ona görə Avropada antiislam və anti-Türkiyə mövqeyi daim paralel aparılıb

**İsveçdə terror təşkilatı PKK/YPG tərəfdarları Türkiyə və Prezident Rəcəb Tayyib Ərdoğana qarşı nümayiş təşkil ediblər. Stokholmda ”Norra Bantorget” meydanına toplaşan terror tərəfdarları İsveçin NATO-ya üzvlük prosesində Türkiyə ilə bağladığı müqavilənin ləğvini istəyiblər.**

Bundan əlavə, Danimarkanın ekstremist sağçı ”Hard Course” (”Sərt kurs”) Partiyasının lideri Rasmus Paluda Türkiyənin Stokholmdakı səfirliyinin divarları qarşısında antiislam təxribatı həyata keçirib. Paluda müsəlmanlar üçün müqəddəs kitab olan ”Qurani-Kərim”in nüsxəsini açıq şəkildə yandırıb. Sağçı ekstremistin təhlükəsizliyi isə yerli polis tərəfindən təmin edilib. Türkiyə baş verənlərə sərt reaksiya bildirib.

Hakim Ədalət və İnkişaf Partiyasının (AK Partiya) sədr müavini Numan Kurtulmuş deyib ki, belə davam edərsə, İsveçin NATO-ya daxil olması məsələsi Türkiyə tərəfindən heç vaxt təsdiqlənməyəcək. Onun sözlərinə görə, aksiyanın Türkiyə səfirliyi qarşısında keçirilməsinin başqa məna və əhəmiyyəti var: ”Türkiyənin 2 milyard müsəlman dünyasının qabaqcıl və müdafiəçisi kimi görürlər. Qüdrətli böyük Türkiyəni həzm edə bilmirlər. Nəyin nə olduğunu, kimin kiminlə məşğul olduğunu bilirik. İstəyirik ki, hər bir problem diplomatiya masasında həll olunsun. Biz İsveç və Finlandiyanın NATO-ya daxil olması ilə bağlı proseslərlə bağlı fikirlərimizi çox aydın ifadə etmişik. Ölkənizdə terror təşkilatlarına siyasi, mədəni və mənəvi dəstək verəcək zəmin yaratmayın. Terrora dəstəyi dayandırın. Bu hücum bir daha göstərir ki, İsveç terrora dəstəyi dayandırmır”. Azərbaycan Xarici İşlər Nazirliyi də İsveçin paytaxtı Stokholmda aksiya zamanı ”Qurani-Kərim”ə qarşı təhqiramiz hərəkəti pisləyib: ”Açıq nifrət cinayəti kimi islamofob hərəkətlər söz azadlığının ifadəsi deyil. Biz İsveç hökumətini bu nifrət cinayətini törədənləri tezliklə ədalət mühakiməsi qarşısına çıxarmağa çağırırıq”. Bir sıra ərəb ölkələri və təşkilatları da İsveçin paytaxtında yandırılmasını pisləyib. ”Əl-Əzhər” Universiteti baş verənlərə görə İsveç hakimiyyətini günahlandırıb. Bəhreyn, Misir, İraq, Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı və digər ərəb ölkələrinin xarici işlər nazirlikləri də radikalları qınayıb. Reaksiyalardan sonra İsveçin baş naziri Ulf Kristersson ”Qurani-Kərim”in yandırılmasını hörmətsizlik adlandırıb. Kristersson bununla bağlı tviter hesabında paylaşım edib: ”Bir çoxları üçün müqəddəs kitabların yandırılması dərin hörmətsizlikdir. Stokholmda baş verənlərdən incimiş bütün müsəlmanlara təəssüf hisslərimi bildirmək istəyirəm”.



“Türklər İsveçi tarixi rəzalətdən xilas etmişdilər. Bunları isveçlilərə yenidən xatırlatmaq lazımdır. Hətta hesab edirəm ki, Türkiyə İsveç və Finlandiyanın NATO-ya qəbuluna veto qoymalıdır”

**AĞ Partiyanın sədr müavini Əhəd Məmmədli ”Şərq”ə bildirib ki, Avropada antiislam və anti-Türkiyə mövqeyi daim paralel aparılıb. Partiya rəsmisi qeyd edib ki, avropalılar islamafobiya ilə türkofobiyanı heç zaman birindən ayırmayıblar:** ”Qərbdəki düşmənlər, radikallar bu iki məsələni eyni görüblər. Çünki türklər, xüsusən Osmanlı islam dininin bayraqdarı olub. İndi də bayraqdarlıq davam etdirilir. Müsəlmanlar içində Avropada ən dərin izi məhz türklər buraxıblar. Avropanın dənizləri Osmanlı daxili dəryaları halına gəlib. Qərb bunu da heç zaman unutmur. Çünki tarixi yaddaş deyilən bir anlayış var. Türkiyə Cümhuriyyətinin Ərdoğanın rəhbərliyi ilə dünya gücünə çevrilməsi, sürətli inkişafı Avropanı ciddi narahat etməkdədir. Antiislam və anti-Türkiyə mövqelərinin yenidən ortaya çıxması bununla bağlıdır. Türklərə qarşı ən çox nifrət isə Skandinaviya ölkələrindədir. İsveçdə PKK-lılar özlərini ikinci vətəndə hiss edirlər, çünki onlara hər cür şərait yaradılır. Ona görə də rahat şəkildə ”Qurani-Kərim”i polisin qoruması altında yandırırlar. Ancaq bu, çox çirkin hərəkətdir”.

**Ə.Məmmədli qeyd edib ki, ən radikal müsəlman ölkəsində belə ”İncil” və ”Tövrat”ın yandırılması hadisəsi baş verməyib:** ”Buna icazə yoxdur. Ancaq Avropanın ən sivil ölkəsində müsəlmanların müqəddəs kitabının yandırılmasına imkan yaradılır. Halbuki İsveçin NATO-ya daxil olmaq məsələsində Türkiyəyə ehtiyacı var. İsveç tarixinin ən şanlı dönəmi XII Karlın hakimiyyət dönəmi idi. Həmin kralı ruslara biabırçı şəkildə əsir düşməkdən türklər xilas etmişdi. Kralı və ailəsini uzun müddət qonaq etmiş, ehtiyaclarını ödəmiş və öz ölkəsinə təmtəraqlı yola salmışdılar. Yəni türklər İsveçi tarixi rəzalətdən xilas etmişdilər. Bunları isveçlilərə yenidən xatırlatmaq lazımdır. Hətta hesab edirəm ki, Türkiyə İsveç və Finlandiyanın NATO-ya qəbuluna veto qoymalıdır. Ən azından öz çirkin siyasətlərindən dönməyənədək Ankara öz mövqeyini qorumalıdır”.

**İsmayıl Qocayev**

## Yurda qayıdış



**Akademik Fikrət Əliyev:**
*"Bir nömrəli vəzifəmiz odur ki, alimlərimizin məqalələri beynəlxalq müstəvidə yayılsın və dünya ictimaiyyətinin diqqətinə çatdırılsın"*

# Nüvədi kəndi...

## Ermənilərin deportasiyasına məruz qalan sonuncu türk yurdu

**Qərbi Azərbaycan İcması son günlər aktiv fəaliyyətə keçib. İcmanın Ermənistan hökumətinə və beynəlxalq təşkilatlara ünvanladığı müraciətlər, daxildə müxtəlif qurumların, tədqiqat komissiyalarının yaradılması da bunun bariz nümunəsidir. Görünən odur ki, İcma bütün imkanlarını səfərbər edərək Prezident İlham Əliyevin bu yöndəki tapşırıqlarını icra etməkdədir.**

İndiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların beynəlxalq konvensiyalara əsasən öz yurdlarına geri dönüşünə dair "Qayıdış konsepsiyası" layihəsi üzərində də işlər davam etdirilir. Geniş ictimaiyyət bu məsələyə yaxından maraq göstərir. Alimlər, mütəxəssislər, sadə vətəndaşlar İcma ilə əlaqə saxlayaraq konsepsiyaya dair öz düşüncə və təkliflərini təqdim edirlər. Qeyd olunub ki, bu istiqamətdə beynəlxalq ümumi hüquq, humanitar hüquq, insan hüquqları, postmünaqişə dövründə reabilitasiya və reinteqrasiya mövzularda ixtisaslaşmış mütəxəssislərin rəy və təkliflərinə xüsusilə böyük ehtiyac var. Tarixçilərin və tədqiqatçıların fikrinə görə, azərbaycanlıların indiki Ermənistandan etnik təmizlənməsi və deportasiyalarının əsas səbəbi regionun və ölkənin milli tərkibinin dəyişdirilməsi idi. Vurğulamaq lazımdır ki, azərbaycanlıların indiki Ermənistandan deportasiyası və köçürülməsi hələ XVIII əsrdən başlanıb. Qərbi Azərbaycandan azərbaycanlıların, ümumiyyətlə, müsəlmanların deportasiyası üç mərhələdə aparılıb: Birinci mərhələ 1905-1920-ci illəri, ikinci mərhələ 1948-1953-cü illəri, üçüncü mərhələ isə 1988-1992-ci illəri əhatə edib. Deportasiya zamanı ermənilər Qərbi Azərbaycanda yaşayan azərbaycanlıların yüzlərlə yaşayış məntəqəsini yerlə-yeksan edib, 30 minə yaxın evi dağıdıb və yandırıblar. Qoca, uşaq və qadınların da daxil olduğu 140 min insan vəhşicəsinə qətlə yetirilib. Yüz minlərlə azərbaycanlı Qərbi Azərbaycandan didərgin salınıb. Sonuncu deportasiya zamanı, 1988-ci ildə 220 mindən artıq azərbaycanlı erməni vəhşiliyinə tab gətirə bilmədiyindən doğma yurd-yuvalarını tərk edib. Bundan sonra ermənilər Qərbi Azərbaycandan azərbaycanlıların izini itirmək məqsədilə buradakı qəbiristanlıqları, tarixi mədəni abidələri, dini müəssisələri, məktəb, xəstəxana və digər binaları darmadağın ediblər. Təkcə 1988-ci ildən sonra Qərbi Azərbaycanda ermənilər azərbaycanlılara məxsus 2000-dən artıq qəbiristanlığı dağıdıb. SSRİ Nazirlər Kabinetinin çoxlu sayda sərəncamları ilə 2 mindən çox ad dəyişdirilib. Ermənilər tarixən azərbaycanlılara, türklərə qənim kəsildikləri halda bu faktlar gizlədilib. Dünya ictimaiyyəti isə bu məsələlərə diqqətsizlik göstərib. Qeyd edək ki, azərbaycanlıların Ermənistandan kütləvi deportasiyası əsasən Stalinin göstərişi ilə həyata keçirilmişdi. Əgər Krım tatarlarını, çeçenləri və digər xalqları almanlarla əməkdaşlığa görə cəzalandırıb köçürmüşdülərsə, azərbaycanlıların köçürülməsinə yeganə səbəb onların azərbaycanlı olması idi. Digər repressiyaya məruz qalan xalqlar yaşadıqları bütün torpaqlardan deportasiya olunsa da, azərbaycanlılar yalnız Ermənistandan köçürüldülər. Bunun da məqsədi Ermənistanın "təmizlənməsi" idi. Ermənilər deportasiya planını həyata keçirməzdən əvvəl bunun üçün xüsusi siyasət yürüdüb. Çar Rusiyası tərəfindən İrəvana köçürülən ermənilər əvvəlcə məskunlaşdıqları kənd, rayon, qəsəbə, dağdərə, mahal və digər yerlərin adlarını dəyişərək erməniləşdiriblər. Bu ərazidə olan azərbaycanlı adlarını öz adları ilə əvəzləyiblər. O vaxt Qərbi Azərbaycanın, indiki Ermənistanın 34 rayonunun adı dəyişdirilib. Məlumat üçün bildirək ki, ermənilərin deportasiyasına məruz qalan sonuncu türk kəndi - Nüvədi olub. Zəngəzurun Nüvədi kəndi Azərbaycan üçün olduqca strateji məsələdir. İllər öncə Ümummilli Lider Heydər Əliyev çıxışlarının birində bu məsələyə xüsusi toxunmuş, kəndin məhz 1929-cu ildə SSRİ tərəfindən zorla Ermənistana birləşdirildiyini vurğulamışdı. Azərbaycanla Naxçıvan arasında Ermənistana əvvəlcə 10 km-lik bir zolaq verildiyini, daha sonra isə həm Naxçıvan, həm də Zəngilan (Cəbrayıl qəzası) kəndlərinin Ermənistana bağışlanması nəticəsində bu zolağın 46 km-ə çatdırılmasını xatırlatmışdı. Ulu Öndər bu qanunsuzluğa etirazını bildirmişdi. Heydər Əliyev çoxminli Nüvədi kəndinin əhalisinin 1991-ci ilə qədər kəndi tərk etmədiklərini də xüsusi diqqətə çatdırmışdı. Prezident İlham Əliyev də Qərbi Azərbaycan İcmasının ziyalıları ilə görüşündə sonuncu kəndimiz Nüvədinin 1991-ci ilin avqustunda deportasiyaya məruz qaldığını bəyan etmişdi.




**Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, akademik Fikrət Əliyev "Şərq"ə açıqlamasında Qərbi Azərbaycan İcmasına öz təkliflərini verdiklərini bildirib. Meğri rayonunun Nüvədi kəndindən olan Akademik vurğulayıb ki, dövlət başçısının bu istiqamətdə atdığı addımları, gördüyü işləri, qarşıya qoyduğu vəzifələri sözlə ifadə etmək mümkün deyil. Alim bəyan edib ki, Prezidentin qərarı tam zamanında verilib:** "Cənab Prezident hər zaman deyir ki, o, hansı addımı nə zaman atacağını yaxşı bilir. Həqiqətən, vaxtında atılmış addımdır. Əgər Qarabağ məsələsi həll olunmamış, torpaqlarımız işğaldan azad edilməmiş Qərbi Azərbaycan məsələsinə gəlsəydik, iki problemin də həllinə nail olmayacaqdıq. Ancaq danışmaqla real iş görməyin arasında fərq böyükdür. Çox söz deyilə bilər, amma baxaq, görək ortaya qoyulan iş nədir. Şükür Allaha, artıq bu istiqamətdə əməli iş görülür. Proseslə bağlı təkliflərimizi də vermişik. Qərbi azərbaycanlıların deportasiyası, erməni yalanlarının ifşası elmi əsaslara söykənməlidir. Ermənilər illərdir dünyanı öz yalanları, uydurmaları ilə doldurublar. Qərbi Azərbaycanın "erməni torpağı" olduğunu iddia ediblər. Qeyd edim ki, Rusiyanın elmi mətbuatında anti-Azərbaycan təbliğatından məhrum edilmiş ermənilər alternativ yollara baş vurublar. Beynəlxalq "İran and the Caucasus" jurnalını təsis ediblər və bu jurnal 1997-ci ildə İrəvandakı İranşünaslıq Mərkəzi tərəfindən buraxılır. Jurnalda regionun tarixi, arxeologiyası, mədəniyyəti, folkloru, siyasi və sosioloji problemləri haqqında elmi işlər çap edilir. Nəşrin baş redaktoru və redaksiya heyətinin 6 üzvü ermənidir. Redaksiya heyətinə Türkiyə, Rusiya, Gürcüstan, İran, bir sıra Qərb ölkələrinin alimləri cəlb edilsə də, bu, sadəcə "beynəlxalq" görüntü yaratmaq məqsədi güdür. Çünki jurnalda çap olunan məqalələrin mütləq əksəriyyəti ermənilər tərəfindən yazılır. Məqalələrin mətni ilə tanışlıq onların anti-Azərbaycan ruhunda yazıldığını, tariximizi, dilimizi, etnoqrafiyamızı saxtalaşdırdığını sübut edir. Bu saxtakarlıq müasir Azərbaycan Respublikasının ərazisi ilə məhdudlaşmır. Həmçinin, Qərbi və Cənubi Azərbaycanın tarixi, ərazinin toponimləri ermənilərə sərf edən istiqamətdə yozulur və "təhlil" edilir. Bu işlər əsasən 2004-cü ildən, yəni jurnal "beynəlxalq" status aldıqdan sonra görülməyə başlanılıb. Məsələ barədə hələ 2011-ci ildə nəşr olunan "Azərbaycanda elmin problemləri və inkişaf perspektivləri" adlı kitabımızda yazmışdıq. Nə etməli olduğumuzu vurğulamışdıq".

**Akademik bəyan edib ki, bir nömrəli vəzifəmiz odur ki, alimlərimizin məqalələri beynəlxalq müstəvidə yayılsın və dünya ictimaiyyətinin diqqətinə çatdırılsın:** "Daxildə, yəni Akademiya və universitet ədəbiyyatlarında çap olunan elmi məqalələri heç kim oxumur, görmür. Əsas vəzifəmiz ermənilərin dünyaya yaydığı saxta məlumatları beynəlxalq elmi jurnallarda dərc olunan həqiqi məqalələrimizlə yalanlamaq, təkzib etməkdir. Dünya ictimaiyyətinə izah etməliyik ki, həqiqət elə deyil, ermənilər sizi aldadır, yalan yazırlar. Mən Qərbi Azərbaycandanam, Meğri rayonunun Nüvədi kəndindənəm. Bizim kəndin adı - Nüvədi (Nuh vadi)dir. Kəndin adını dəyişib, yazıblar - "Nrnadzorlar dərəsi". Bilirsiz, proses iki istiqamətdə getməlidir. İlk növbədə elmi cəhətdən əsaslandırmalıyıq. Atam Əhmədəli Əliyevin "Azərbaycan dilinin Meğri şivələri" adlı kitabı çap olunub. Meğridə bir neçə kənd var və hər kəndin özünün şivəsi var. Əgər orada yaşayan azərbaycanlılar ermənilərin iddia etdiyi kimi "köçmə" olsaydılar, bu qədər şivə olmazdı ki?! Allah Ulu Öndərimiz Heydər Əliyevə qəni-qəni rəhmət etsin. O vaxt bildirmişdi ki, atamın qələmə aldığı kitab Meğrini hər zaman Azərbaycanın etdi. Yəni Meğrinin azərbaycanlıların olduğunu sübuta yetirdi. Həmin kitabı dünyanın bir çox kitabxanasına, ABŞ-də Senatın kitabxanasına qədər göndərdik. Çünki alimlər qabaqda getməli və tarixi prosesləri elmi cəhətdən əsaslandırmalıdırlar. Artıq köhnə stereotiplər işləmir".

**F.Əliyev vurğulayıb ki, ermənilərin Qərbi Azərbaycan haqqında beynəlxalq elmi jurnallarda çap olunmuş bütün məqalələrini tapmalı və hamısını təkzib etməliyik:** "Bunu etmək üçün imkanlarımız var. Türkiyənin, Pakistanın, Malayziya və İndoneziyanın jurnallarında həqiqi elmi məqalələrimizi çap etdirə bilərik. Şükür Allaha, Prezident məsələni konkret şəkildə ortaya qoydu. Bir daha deyirəm, azərbaycanlıların deportasiyası və Qayıdış konsepsiyası elmi şəkildə əsaslandırılmalı və həqiqətlər dünya ictimaiyyətində yayılmalıdır. Dünya ilə əlaqələrimiz güclüdür. Artıq o buzu sındırmalıyıq. Alimlərimizin birinci vəzifəsi budur".

**İsmayıl Qocayev**



# Ərdoğanın siyasi alternativi yoxdur

## Müxalifət partiyaları üzərindən çox təhlükəli oyunlar oynanılır

**Türkiyədə seçkilərin tarixi bəlli olub. Prezident və parlament seçkiləri 2023-ci il mayın 14-də keçiriləcək. Prezident Rəcəb Tayyib Ərdoğan deyib ki, baş verənlər fonunda seçkilər inqilab olacaq. Türkiyəni inkişaf və güclənmək yolundan onları heç kimin saxlaya bilməyəcəyini diqqətə çatdıran Ərdoğan bildirib ki, mərhum Adnan Menderes 1950-ci il mayın 14-də "Bəsdir daha, söz millətindir!" deyərək millətin qəlbinə girmiş və seçkilərdən qalib çıxmışdı:**

"Millətimiz 73 il sonra bir daha eyni gün müstəmləkədə qalmaq həvəsində olanlara "Bəsdir!" deyəcək". Türkiyə lideri vurğulayıb ki, iş dünyasını təhdid edənlərə də layiqli cavab seçkilərdə veriləcək: "Ölkəmizin strateji sərmayələrini əngəlləmək arzusunda olanların xəyallarını qursağında qoyacağıq. Millətimizin gündəmindən tamamilə çıxartdığımız siyasi qeyri-sabitlik mühitinin yenidən dirçəlməsinə imkan verməyəcəyik. Hətta son bir-iki ayda baş verənlər də bu çürük strukturun xaos və böhrandan başqa heç nə vəd etmədiyinin sübutudur. Məqsədləri xalqa bir kövrək şəxsiyyəti prezident kimi qəbul etdirməkdir". Xatırladaq ki, Türkiyədə seçkilərin vaxtı iyunun 18-nə təyin olunmuşdu. Lakin dövlət rəsmiləri həmin tarixdə vətəndaşların müəyyən hissəsinin tətildə olacağı səbəbindən səsvermənin vaxtının irəli çəkilməsinin zəruriliyini demişdilər. Digər səbəblər də nəzərə alınaraq, seçki tarixi 14 maya çəkilib. Məlumat üçün deyək ki, hakim Ədalət və İnkişaf Partiyası (AKP) ilə yanaşı Milliyyətçi Hərəkat Partiyasının (MHP) daxil olduğu "Cümhur İttifaqı"nın namizədi Türkiyənin hazırkı Prezidenti Ərdoğandır. O, dəfələrlə müxalifəti öz namizədinin adını açıqlamağa çağırıb. Lakin "altılı masa"da birləşən müxalifət liderləri seçki tarixi təyin olunana qədər bunu etməkdən imtina ediblər. Məsələ ondadır ki, seçki tarixi bəlli olsa da, müxalifət düşərgəsi hələ də vahid namizədi müəyyən etməkdə çətinlik çəkir. Müxalifətin vahid namizədinin təyin olunmaması düşərgədəki fikir ayrılıqlarından, partiyalararası qarşıdurmalardan qaynaqlanır. Lakin "Gələcək" Partiyasının lideri, keçmiş baş nazir Əhməd Davudoğlu bildirib ki, müxalifət prezident seçkilərinə vahid namizədlə qatılacaq. Onun sözlərinə görə, altı partiyadan ibarət müxalifət blokunun niyyəti Türkiyədə keçiriləcək prezident seçkilərinə vahid namizədlə qatılmaqdır.

> "Altı partiyanın reallıqda birləşməsi qeyri-mümkündür, çünki kənar müdaxilələr səbəbindən aralarında ciddi fikir ayrılıqları mövcuddur"

**Türkiyədə seçki öncəsi yaşanan prosesləri "Şərq"ə dəyərləndirən siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev deyib ki, Türkiyənin dövlətçilik ənənəsi yüzillər öncə formalaşıb. Professorun sözlərinə görə, seçki tarixi təsadüfən seçilməyib:** "1950-ci ilin 14 may tarixi ölkənin demokratik seçki sisteminə keçidi kimi qəbul olunur. Seçki gününün simvolik olaraq həmin tarixə salınmasında müəyyən mesajlar var. Türkiyəyə beynəlxalq aləmdən, Qərb dünyasından ciddi basqılar, təzyiqlər edilir. Ərdoğanın sərgilədiyi mövqeyə, Türkiyənin qısa müddətdə dünya gücünə çevrilməsinə, iqtisadi dirçəlişinə, silah bazarına girməsinə və Turan ideyasına görə, Ankara siyasi-iqtisadi və hərbi təhdidlərlə üzləşir. Açıq etiraf etmək lazımdır ki, Türkiyəni dünyada öncül siyasət yeridən qüdrətli ölkəyə çevirən Ərdoğanın yeritdiyi müstəqil siyasət olub. Bu da Qərb tərəfindən qəbul olunmur və çoxsaylı hücumlar edilir. Müxalifətin "6-lı masası" təsadüf nəticəsində ortaya çıxmayıb. Həmin düşərgədə təmsil olunan bir neçə partiyanın arxasından Türkiyənin əleyhinə olan dairələrin maraqları boylanır".

**C.Nuriyevin qənaətincə, müxalifət partiyaları üzərindən çox təhlükəli oyunlar oynanılır:** "Altı partiyanın reallıqda birləşməsi qeyri-mümkündür, çünki kənar müdaxilələr səbəbindən aralarında ciddi fikir ayrılıqları mövcuddur. Ərdoğanın qarşısına güclü namizəd kimi çıxara biləcəkləri şəxs də tapılmır. İndiki məqamda müxalifət düşərgəsində Ərdoğanın siyasi alternativi yoxdur. Müxalif blokda söz sahibi olanlar və ona güvənərək aranı qarışdıranlar Cümhuriyyət Xalq Partiyasının və İYİ partiyanın rəhbərliyidir. Digər partiyaların əhali arasında etibarı, səs faizi, bazası çox zəifdir. Ortaya qoyacaq siyasi gücləri, iddiaları yoxdur. Bu partiyaların PKK-nın siyasi qolu sayılan HDP ilə təmasları seçicilərin etimadını ciddi zədələyən faktordur. Ehtimal ki, seçkidə Ərdoğan 55-60 faiz səs yığacaq. Böyük əksəriyyətin Ərdoğana dəstək verəcəyini düşünürəm. Müxalifətin qələbə qazanmaq şansı demək olar ki, yoxdur. Maksimum səs faizləri 20-25 arasıdır. Ən əsası odur ki, cənab Ərdoğanın Türkiyənin başında olması hər baxımdan Azərbaycanın da maraqlarına uyğundur".

**İsmayıl Qocayev**

# MEDİA "Rəqəmsal jurnalistika" təlimlərinə başlayıb



**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi və ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun birgə təşkilatçılığı ilə "Rəqəmsal jurnalistika" təlimlərinə başlanılıb.**

**Bu barədə "Şərq"ə MEDİA-dan bildirilib.**

Açılış nitqi ilə çıxış edən MEDİA Agentliyinin media subyektləri və jurnalistlərlə iş şöbəsinin müdiri Natiq Məmmədli bildirib ki, bu təlim redaksiya siyasətinin rəqəmsal strategiyasının qurulması, onlayn məzmun yaratma üsulları vasitəsilə informasiyanın düzgün auditoriyaya çatdırılması və bütünlükdə mediada rəqəmsallığın yaratdığı yeniliklər çərçivəsində jurnalistlərin bacarıqlarının inkişafında müstəsna rol oynayacaqdır.

"Rəqəmsal jurnalistika" mövzusunda keçirilən təlimlərdə "Daily Mail UK", "The Australian", "Sunday Telegraph UK" kimi bir çox tanınmış xəbər agentliklərində redaktor vəzifəsində çalışmış, hazırda baş ofisi Londonda yerləşən "High Park Communications" media şirkətinin təsisçisi və direktoru olan Kolin Gibson çıxış edib.

O, iştirakçılara "Biznes planlarının və redaksiya siyasətinin rəqəmsal strategiyaya uyğunlaşdırılması", "Rəqəmsal media kampaniyalarının yaradılması, düzgün auditoriyaya çatdırılması və izlənilməsi", "Analitikaya əsaslanan rəqəmsal media: daha çox kütləyə çatmaq üçün data əsaslı əməliyyatların optimallaşdırılması" və s. kimi mövzularda təlim keçib, qeyd olunan istiqamətlərdə geniş fikir mübadiləsi aparılıb.

Yanvarın 26-na qədər davam edəcək "Rəqəmsal jurnalistika" təlim proqramının əsas məqsədi jurnalistika sahəsində yaranan yeni imkanların və mediada yeni tendensiyaların öyrənilməsi, rəqəmsal media sahəsində peşəkar vərdişlərin inkişaf etdirilməsi, rəqəmsal media ekosisteminin inkişafına töhfə verilməsidir.

# "Oğlunuz orduda növbəti qurban olmamalıdır"

## Ermənistanda hökumət və müdafiə naziri əleyhinə etiraz aksiyası keçirilir



**Ermənistan hökumətinin binası yaxınlığında "Oğlunuz orduda növbəti qurban olmamalıdır" şüarı ilə etiraz aksiyası keçirilir.**

"Report" "Sputnik Armenia"ya istinadən xəbər verir ki, "Birləşmə" hərəkatı üzvləri hərbi hissədə baş vermiş yanğın görə baş nazir Nikol Paşinyanı və müdafiə naziri Suren Papikyanı ittiham edirlər.

Hərəkatın üzvü Avetik Çalabyanın sözlərinə görə, insanlar çoxdan ayağa qalxmalı, hökuməti tənqid etməli idilər.

Etirazçıların fikrincə, hadisələr belə davam edərsə, hərbi hissədəki yanğın sonuncu bu cür hadisə olmayacaq.

*Qeyd edək ki, noyabrın 18-də Ermənistanın Basarkeçər rayonunun Azad kəndində N saylı hərbi hissənin mühəndis-istehkam bölüyünün kazarmasında yanğın baş verib. Hadisə nəticəsində 15 hərbçi ölüb, 6 əsgər və 1 zabit yaralanıb. Hadisəyə görə, Ermənistan silahlı qüvvələrinin İkinci ordu korpusunun komandiri polkovnik Vahram Qriqoryan və digər zabit heyəti işdən çıxarılıb.*

# Tbilisi platforması real görünmür

## Cənubi Qafqaz ölkələri arasında üçtərəfli dialoq inkişaf deməkdir, lakin...



**"Rəsmi İrəvan hazırda Ermənistan, Gürcüstan və Azərbaycan liderlərinin iştirakı ilə görüş ideyasını nəzərdən keçirir". Bu barədə Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan bildirib. O bəyan edib ki, Ermənistan Cənubi Qafqaz ölkələri arasında üçtərəfli dialoqun inkişafına maraq göstərir: "Biz mümkün Tbilisi platformasını ikitərəfli Ermənistan-Azərbaycan görüşləri baxımından deyil, regional üçtərəfli müzakirələr prizmasından nəzərdən keçiririk. Hazırda Ermənistan və Gürcüstan baş nazirlərinin Azərbaycan Prezidenti ilə görüşü gündəmdədir".**

Qeyd edək ki, ATƏT-in hazırkı sədri Ann Linde təhlükəsizlik məsələləri üzrə illik konfransda bildirmişdi ki, Gürcüstan, Ermənistan və Azərbaycan arasında əməkdaşlıq Cənubi Qafqazda dayanıqlı sülh və inkişaf üçün vacibdir.

Görüş ehtimalını "Şərq"ə şərh edən hərbi-siyasi ekspert Həşim Səhrablı bildirib ki, tərəflər qlobal miqyasda qeyri-müəyyənliyin olduğunu yaxşı başa düşür: "Qeyri-müəyyənliyin sonunda hansı tərəfin qazanclı və yaxud məğlub çıxacağını söyləmək çox çətindir. 10-15 il əvvəl qlobal rəqabət yaşansaydı, ABŞ və Qərb dövlətləri ozamankı üstünlükləri ilə rəqiblərini sıradan çıxarmağı bacarardılar. İndi qüvvələr nisbəti də dəyişib. Bəziləri təxmin edirdi ki, Ukraynada müharibə bir ilə qədər uzansa, Rusiya hərbi potensial baxımından tab gətirə bilməyəcək.

Çünki Ukraynaya Qərb, xüsusilə NATO ölkələrindən dəstək gəlir. Rusiya müəyyən qədər İrandan dəstək alsa da, təkbaşına mübarizə aparır. Eyni zamanda Çin faktoru son illərin ən yüksək inkişaf tempinə malikdir. Bu da qarşıdurmada qüvvələr nisbətini balanslaşdırıb. Dünyəvi rəqabət fonunda Cənubi Qafqaz ən təhlükədə olan regionlardan biridir. Çətin situasiya ilə üz-üzədir. Hegemon güclərin Cənubi Qafqazla siyasi qərarlarının nədən ibarət olacağını təxmin etmək olmur. Ona görə də Cənubi Qafqazın özünü müdafiə etməsi üçün tək-tək hərəkət etməsi əlavə risklər ortaya çıxarır".

***"Ermənilərin iddiaları üç ölkə arasında tam sağlam əməkdaşlığın formalaşmasının mümkünsüzlüyünü ortaya qoyur"***

Ekspertin qənaətincə, problem odur ki, Qafqaz ölkələri arasında ciddi rəqabət var: "Azərbaycanla Ermənistan arasında düşmənçilik məsələsi ortaya çıxır. Cənubi Qafqaz özü də beynəlxalq rəqabətdə yer alır. Cənubi Qafqaz özü mübarizə poliqonuna çevrilmək təhlükəsi ilə qarşı-qarşıyadır.

Ermənistan daha tələsik davranır, üçtərəfli görüşdə maraqlı olduğunu diqqətə çatdırır. İrəvan 2021-ci ildə acı məğlubiyyətə uğradığının fərqindədir. Onlar heç bir qlobal məsələlərdə söz haqqında malik olmayacaqlar. Hərbi gücləri, potensialları buna imkan vermir. 2020-ci ilə qədər Azərbaycanı məğlub edəcəklərini düşünürdülər. Artıq görürlər ki, Azərbaycanı məğlub edə bilməyən dövlət qlobal güclərə qarşı heç bir vasitə ilə təzyiqlərə sinə gərə bilməz. Əməkdaşlığın ilk şərti Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasıdır".

**H.Səhrablının fikrincə, Cənubi Qafqaz ölkələri arasında ziddiyyətli məqamlara son qoymaq və ortaq məxrəcə gəlmək lazımdır:**

"Ermənistan sülh müqaviləsini bağlamaq üçün Azərbaycanın şərtlərini tam şəkildə yerinə yetirəcəkmi? Beynəlxalq hüququn tələb etdiyi sərhədlərin müəyyənləşməsinə nə dərəcədə real yanaşacaq? Qarabağ iddialarından əl çəkəcək? Azərbaycan xalqının yüz illərdir, talandığı hüquqlarını geri verməkdə iradəli olacaq? Ermənistanın havadarları belə addım atması üçün ona razılıq verəcəkmi? Hazırda bunlar qeyri-mümkün görünür.

Üçtərəfli görüşün keçirilməsi, Cənubi Qafqaz ölkələri arasında qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsi meyilləri çox effektiv nəticələr verməyəcək".

Hərbi siyasi ekspert söyləyib ki, tərəflər rəsmi Bakının mərkəzə çevrilməsinə razılıq verdiyi təqdirdə Cənubi Qafqazda ideal əməkdaşlıq mühitinin formalaşması mümkündür: "Cənubi Qafqazın ən potensial ölkəsi Azərbaycandır. Dünyaya çıxışı, Avropa enerji təhlükəsizliyi, Şərq-Qərb, Şimal-Cənub dəhlizləri baxımından Cənubi Qafqazda birlik və əməkdaşlığı formalaşdıra biləcək yeganə mərkəz rəsmi Bakıdır. Ermənistanın qəbul etməyəcəyinin fərqindəyik. Bu da əməkdaşlığa zərbə vuracaq. Heç Gürcüstanın da Cənubi Qafqazda hegemonluğu öz əli ilə Bakıya təqdim etmək niyyətinin ola biləcəyini dəqiq söyləmək olmur. İstənilən halda rəqabət mühiti qalacaq. Ermənilərin əsassız etnik kinlərini daxil etsək, Cənubi Qafqazda üç ölkə arasında tam sağlam əməkdaşlığın formalaşmasının mümkünsüzlüyü qənaətinə gələ bilərik".

**Aygün Tahir**

# Təqaüdlərin miqdarı çox azdır

## Ehtiyacı olmasa, kimsə 65-70 yaşdan sonra işləməyə cəhd etməz

**Həkim və müəllimlərin fəaliyyətinə 65 yaş həddi Milli Məclisdə müzakirə edilib. Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclasında komitə sədrinin müavini Məlahət İbrahimqızı bildirib ki, qanunvericiliyə əsasən, dövlət büdcəsindən maliyyələşən işçilərin pensiya yaşı 65-dir. 65 yaşı tamam olan mütəxəssislər avtomatik işdən çıxarılır.**



***"65 yaşlı təcrübəli həkim, cərrah, tibbin hər hansı istiqaməti üzrə illərdir çalışmış şəxsi "sən artıq yaşlanmısan, lazım deyilsən" deyib kənarlaşdırmaq doğru deyil"***

Lakin dünya təcrübəsinə baxsaq görərik ki, Avropa ölkələrində həkimlər 70 yaşa qədər işdə saxlanılır: "Səhiyyə sahəsində təkcə Bakı şəhərində kifayət qədər həkim və tibb işçilərinin vakansiyası var. 65 yaşlı həkim pensiyaya görə işdən çıxarılırsa, 320 manat təqaüdlə nə etsin? Elə təhsil işçiləri barədə də bunu demək istəyirəm". Deputat qeyd edib ki, son vaxtlar pensiya yaşına çatanların işlə bağlı müddəti 3 ay, 6 ay uzadılır: "Bu da rüşvətə yol açır. Heç olmasa, pensiyaya çıxanları bölgələrdə işlə təmin etsinlər, bölgələrdə kifayət qədər vakansiyalar var. 65 yaşdan yuxarı həkimləri rayonlara göndərə bilərlər". Komitənin sədri Musa Quliyev də bildirib ki, yaş insanın əmək fəaliyyətinə əngəl ola bilməz: "İnsanın sağlamlığı, bilik və bacarığı imkan verirsə, insan əmək fəaliyyətini davam etdirə bilər. Necə ola bilər ki, özəl sektorda 65 yaşı olan həkim işləyə bilər, ancaq dövlət sektorunda işləyə bilməz?! Heç olmasa, sertifikasiya kimi imtahan da keçirilə bilərlər. Mən heç 70 yaş senzinin qoyulmasının da tərəfdarı deyiləm. Bu yaxınlarda bir simpoziumda müəllimlərlə bağlı da belə məsələ qaldırıldı. Müvafiq qurumlarla, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə bu məsələ müzakirə edilə bilər".

**Bərdə rayonu Qazaxlar kənd tam orta məktəbinin direktoru Elşən Ramizoğlu "Şərq"ə açıqlamasında qeyd etdi ki, bu məsələdə istər-istəməz narazılıq yaranacağı gözlənilləndir:**

- Çünki hər kəs eyni düşünmür, verilən qərarla razılaşmayan məqamlar meydana çıxır. İlk növbədə nəzərə almalıyıq ki, bu məsələ Əmək Məcəlləsi ilə nizamlanır. Dövlət büdcəsindən mailiyyələşən müəssisələrdə çalışanlar təqaüd yaşına çatdıqda onların əmək fəaliyyətinin müddəti müəssisə rəhhbəri tərəfindən uzadıla bilər. 5 il, yaxud, 1 il müddətinə. Elm, mədəniyyət, səhiyyə, təhsil sahələrində xüsusi rolu olmuş şəxslərin əmək müqaviləsi Nazirlər Kabinetinin müəyyən etdiyi kriteriyalara uygun uzadıla bilər. Həmçinin burada biz Əmək Məcəlləsinin 10-cu maddəsində qeyd olunan faiz nisbətlərini də nəzərə almalıyıq. Bəzən baxırıq ki, işlədiyi müəssisədə daima qeyri-leqal qazanc dalınca düşənlər var, bu cür şəxslərin çoxu heç zaman işindən ayrılmaq istəməyib, qazancı itirmək istəməyib. Zaman gəlib, həmin şəxslə əmək müqaviləsi bağlanmayıb, bu zaman da çıxıb deyir ki, xidmətləri olub, ona qarşı haqsızlıq edilir. Ancaq fikirləşməyib ki, özü illərdir bu dövlətə, cəmiyyətə nə qədər haqsızlıq edib. Bu gün də bunun nəticəsidir ki, onunla əmək müqaviləsi bağlanmayıb. Elə şəxslər də var ki, 65 yaşı tamam olub, baxırsan ki, gümrahdır, yaxşı idarəetmə təcrubəsi var, müəssisəyə faydası ola bilər. Bu zaman həmin şəxsin əmək müqaviləsinin uzadılmağı məsləhətdir və belə də edilir. Ümumiyyətlə, yaşı tamam olmuş şəxslərin əmək müqaviləsinin uzadılmasına fərdi qaydada baxılır. Bu şəxsin nüfuzu, iş qabiliyyəti, müəyyən meyarlar nəzərə alınır. Bəzən şahidi oluruq ki, şəxs müəssisəyə zorla gəlir, səhhəti çalışmasına imkan vermir. Bu şəxslə niyə əmək müqaviləsi uzadılmalıdır ki?!

**Həkim-terapevt Şahvələd Məmmədov da Milli Məclisdə qaldırılan problemin aktual olduğunu dedi:**

- Bu məsələnin bir neçə tərəfi var. 65 yaş həddi həm də ona görə tətbiq edilir ki, gənc kadrlar işlə təmin edilsin, biliklərini tətbiq edə bilsinlər, çalışsınlar. Lakin bu məsələdə xırda nüanslar da var. 65 yaşlı təcrübəli həkim, cərrah, tibbin hər hansı istiqaməti üzrə illərdir çalışmış şəxsi "sən artıq yaşlanmısan, lazım deyilsən" deyib kənarlaşdırmaq doğru deyil. Bu şəxslərin bacarıqlarına, təcrübəsinə, tibbi yenilikləri nə dərəcədə qavradığına, nə dərəcədə istifadə edə bildiyinə baxılmalıdır. Tibb elə bir sahədir ki, burada yaş deyil, bilik və təcrübə əsas götürülməlidir. Təqaüdlərin miqdarı azdır, təqaüdə göndərilən həkim də məcbur olub başqa klinikalarda işə düzəlir. Təqaüdün miqdarı elə bir səviyyədə olmalıdır ki, istər həkim, istər müəllim olsun, ya da başqa peşənin sahibi, təqaüdə çıxdıqda ehtiyac hiss etmədən yaşaya bilsin. Ehtiyacı olmasa, kimsə 65-70 yaşdan sonra işləməyə cəhd etməz. Evdə oturub nəvələriylə məşğul olar, istirahət edər. Bu, tamam başqa mövzudur. Qaldı ki həkimlərin təqaüdə çıxdıqdan sonra çalışmasına, millət vəkillərinin də dediyi kimi, regionlarda həkim çatışmazlığı yaşanır. Elə paytaxtda da özəl klinikalar var ki, təcrübəli həkimlərə ehtiyac duyulur. Amma bu o demək deyil ki, 65 yaşını haqlamış həkimlər ucdantutma regionlara, bölgələrə göndərilməlidir. Xeyr, həkimin illərlə çalışdığı müəssisədə onun daimi pasiyentləri, ona inanan, güvənən insanlar var. Onlar da nəzərə alınmalıdır.

**Ş.Məmmədov qeyd etdi ki, 65 yaşdan sonra çalışıb-çalışmayacağına həkimlərin özləri də qərar verməlidir:**

- Əgər insan yaşlandığını, əvvəlki iş əmsalına uyğun çalışmadığını anlayırsa, o özü istefa verməlidir. Bu da bir nəzakət, etika göstəricisidir. Cərrahın əli əsəcəksə, gözləri yaxşı görməyəcəksə, onun əməliyyat aparması düzgün deyil. Təcrübəli həkimlərin biliyindən, təcrübəsindən istifadə edilməlidir. Onlar konsiliumlara cəlb edilməli, elmi mərkəzlərə dəvət edilməli, biliklərini bölüşməli, xəstəliklər, cərrahi əməliyyatlarla bağlı düzgün qərarların verilməsinə yardım etməlidirlər.

**Məlahət Rzayeva**

**Fransadan olan deputatların təşəbbüsü ilə Avropa Parlamentinin (AP) yanvarın 19-da reallıqdan uzaq, Azərbaycan əleyhinə böhtan xarakterli bəndlərin yer aldığı qətnamə qəbul etməsi bu qurumun iç üzünü açır. Avropa Parlamenti növbəti dəfə erməniçiliyə xidmət edən şər yuvası rolunda çıxış edir. Qətnamədəki əsassız iddialar da bunu təsdiqləyir.**



# Tarix qarşısında cavab verəcəklər!

## Rüşvət müqabilində və xristian təəssübkeşliyi əsasında erməni faşizminə dəstək verən bütün avroparlamentarilər ifşa olunacaq

Qətnamədə qeyd olunur ki, guya, Azərbaycan Ermənistana "hərbi təcavüz" edib, həmçinin Laçın yolu "blokada"dadır və Xankəndidə yaşayan ermənilər ciddi çətinliklərlə üzləşiblər. Avroparlamentarilər Azərbaycana böhtan atmaqla yanaşı, Laçın yoluna nəzarət edən rusiyalı sülhməramlıları da fəaliyyətsizlikdə günahlandırıblar və onların beynəlxalq sülhməramlı qüvvələrlə əvəz olunması zərurətini vurğulayıblar. Bununla yanaşı, avropalı deputatlar BMT və ATƏT kimi təşkilatları Laçın dəhlizinə faktaraşdırıcı, müşahidəçi missiya göndərməyə çağırış ediblər.

**Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov "Şərq"ə bildirib ki, avroparlamentarilər Azərbaycan və Ermənistanı tarixə qovuşmuş "Madrid prinsipləri" əsasında sülh danışıqlarını da bərpa etməyə çağırıblar. Partiya rəhbərinin sözlərinə görə, bu cür sərsəm çağırışlar və əsassız ittihamlar belə təəssürat yaradır ki, onların məqsədi Cənubi Qafqazda ədalətli sülhün bərqərar olmasına dəstək vermək deyil:** "Avropa Parlamenti nümayəndələrinin reallıqdan birmənalı şəkildə uzaq qətnaməsi açıq şəkildə ermənilərin maraqlarının müdafiəsinə xidmət edir. Əvvəllər heç olmasa, "ikili standartlar" prinsipi ilə hərəkət edən AP deputatları indi gerçək niyyətlərini gizlətməyə heç bir cəhd göstərmirlər. Erməni lobbisinin çirkli pullarına dadanan avroparlamentarilər Ermənistanın vəkili kimi çıxış edirlər. Azərbaycan ərazilərində təbii sərvətlərimizin separatçılar və Ermənistan hökuməti tərəfindən qeyri-qanuni istismar edilməsi və digər ölkələrə daşınması, bölgədə ekoloji böhranın kritik həddə çatması, ermənilərin mina terroru, Ermənistan hökumətinin yekun sülh müqaviləsini imzalamaqdan cürbəcür bəhanələrlə yayınması isə Avropa Parlamentinin üzvlərini qətiyyən narahat etmir. Onlar bu faktlara göz yummağa üstünlük verirlər. Bu gün avropalı qanunvericilərin erməni revanşizmini dəstəkləməsi 80-85 il öncə Avropa liderlərinin alman faşizminə göz yummasından heç nə ilə fərqlənmir. Məsələlərə bu cür qərəzli və qeyri-obyektiv yanaşan avropalı deputatlar əslində odla oynayırlar. Sivilizasiyanın, humanizmin beşiyi roluna iddia edən Avropa növbəti dəfə faşizmin beşiyinə çevrilir. Ədalət və məsuliyyət hissini itirən, erməni lobbisinin sifarişlərinin icraçısına çevrilən, anti-Azərbaycan xarakterli qətnamə qəbul edən avropalı parlamentarilər hərdənbir tarix kitablarını vərəqləməli və Nürnberq prosesini unutmamalıdırlar. Rüşvət müqabilində və xristian təəssübkeşliyi əsasında erməni faşizminə dəstək verən bütün avroparlamentarilər ifşa olunacaq və tarix qarşısında cavab verəcəklər!".

**İsmayıl Qocayev**

# Cəmiyyət müəllimə sahib çıxmalıdır

## Çətin tərbiyə olunan şagirdləri cəzalandırmaq üçün mexanizmlər olmalıdır





***"Ölkəmizdə savadsızlığın, rüşvətxorluğun, yüngül həyat tərzinin, narkomaniyanın yayılmasında maraqlı olan qüvvələr üçün məktəb əlverişli obyekt və mühitdir"***

**Sosial mediada orta məktəblərimizdən yayılan neqativ görüntülərin, səs yazılarının ardı-arası kəsilmək bilmir. Bu dəfə də sinifdə dərs zamanı nadinc şagirdlərə əl qaldıran müəllimin görüntüləri sosial şəbəkələrdə gündəm olub. Videonu izləyənlərin yarısı müəllimi, yarısı isə şagirdləri günahlandırırlar. Bəs əslində məsələ necədir?**

Qeyd edək ki, görüntülər paytaxtdakı 59 saylı tam orta məktəbin 6 C sinfində qeydə alınıb. Müəllim dərs zamanı nizam-intizama tabe olmayan uşaqlara əl qaldırıb, şagirdlərdən biri isə bu anı telefonla qeydə alıb.

Azərbaycan dili və ədəbiyyat müəllimi kimi çalışan Solmaz müəllimə bir neçə şagirdin dərs prosesinin gedişinə mane olduğunu, təkrar xəbərdarlıqlardan nəticə çıxarmadıqlarını, dərsi izah etməyə maneə yaratdıqlarını və bu səbəbdən məlum vəziyyətin yarandığını bildirib.

Solmaz müəllimənin 62 yaşı var və 38 ildir dil-ədəbiyyat müəllimi kimi fəaliyyət göstərir. O, saçlarını müəllimlik edərək ağardıb. Yaşından çox şagird, ən əsası insan yetişdirib. Bu gün onun yetişdirdiyi şagirdlər eyni məktəbdə onunla çiyin-çiyinə çalışırlar. 40 ilə yaxındır müəllimlik edən Solmaz xanım deyir ki, keçmiş dönəmin şagirdləri ilə indikilər eyni deyil və onları tərbiyə etmək olduqca çətindir.

6 C sinif şagirdlərinin valideynləri də baş verənlərlə bağlı təəssüf hissi keçirdiklərini dilə gətiriblər və müəllimədən üzr istəyiblər.

Videonu çəkən şagird müəlliməni çox istədiyini və dərsdə nadinclik etdikləri üçün peşman olduğunu bildirib.

**Yenisabah.az saytının baş redaktoru Seymur Verdizadə isə "Şərq"ə açıqlamasında deyib ki, çətin tərbiyə olunan şagirdləri cəzalandırmaq üçün mexanizmlər olmalıdır:** "Cəmiyyət müəllimə sahib çıxmalıdır. Müəllim o həddə çatdırılmamalıdır ki, şagirdə əl qaldırsın. Azərbaycanda müəllim-şagird münasibətləri düzgün qurulmayıb. Bu sahədə köklü islahatlara ehtiyac var. Düşünürəm ki, islahatlara Elm və Təhsil Nazirliyindən başlamaq lazımdır".

Ekspertlərin fikrincə, ölkəmizdə savadsızlığın, rüşvətxorluğun, yüngül həyat tərzinin, narkomaniyanın yayılmasında maraqlı olan qüvvələr üçün məktəb əlverişli obyekt və mühitdir: "Onlar ideoloji üsullarla həm təhsilin keyfiyyətinin azalmasında, müəllimin nüfuzdan düşməsində, həm də tərbiyənin pozulmasında maraqlıdırlar. Son günlər məktəb və müəllimlərlə bağlı hay-küylər göstərir ki, təhsil sistemində arzuolunmaz hadisələr baş verir. Sadəlövh insanlar, bəzi jurnalistlər özləri bilmədən düşmən dəyirmanına su tökürlər. Bunları nəzərə almaq və sığortalanmaq həm lazım, həm də zəruridir. Azərbaycan müəlliminin düşdüyü durum adamın ürəyini ağrıdır. Müəllim şagirdin üstünə qışqıranda ona töhmət verilir. Müəllim şagirdə qulaqburması verəndə, töhmət alır. Müəllim şagirdə xoşa gəlməyən söz deyəndə yenə cəzalandırılır - ən yüngül cəzası töhmət olur. Hətta bu üzdən işdən qovulanlar da var.

Ərköyün şagirdləri cəzalandırmağa cəsarəti çatmayan təhsil səlahiyyətlilərimizin gücü müəllimlərə çatır. Şagird məktəbə 4 minlik telefonla gəlib sinifdə müəllimin şəklini çəkir, ona heç kim heç nə demir. Şagird məktəbə gəlmir, yenə "gözün üstə qaşın var" deyən olmur".

*Təhsil eksperti Elşən Qafarov isə təhsil müəssisələrində bu tip hadisələrin tez-tez baş verməsini xoşagəlməz hal kimi dəyərləndirib. Onun sözlərinə görə, ümumtəhsil məktəblərinin nizamnaməsinin olmaması bu gün bu və bu kimi halların baş verməsinə səbəb olur:*

"Müəllim şagirdə qarşı hər hansı fiziki və psixoloji təzyiq göstərə bilməz. Buna yol verən müəllimlər isə intizam məsuliyyətinə cəlb olunur. Amma şagird müəllimə qarşı hörmətsizlik və onu özündən çıxaracaq qədər tərbiyəsizlik edirsə, şagirdə qarşı hansı cəza tətbiq edilməlidir, bunlar məktəb nizamnaməsində öz əksini tapmalıdır. O ki qaldı tələbələrin dərsdə telefondan istifadəsinə, bunu da məktəblərin nizamnaməsi ilə tənzimləmək olar. Ümumilikdə isə bu məsələ ilə bağlı qanunda da ciddi boşluqlar var".

**Şəymən**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği:**



# Azərbaycan mətbəxi dünyanın ən zəngin mətbəxləri sırasındadır

## Qloballaşan dünyada xalqımızın adət-ənənələrini, süfrə mədəniyyətini qorumaq və yaşatmaq, habelə xaricdə layiqincə təbliğ etmək çox vacibdir

**Azərbaycan xalqının mətbəx mədəniyyəti çox dərin köklərə bağlıdır. Milli mətbəx mədəniyyətimiz, onun tarixi, ləziz yemək növlərimiz hər dəfə özünü büruzə verir. Hər bir xalqın mətbəx mədəniyyətinə görə onun yaşayış tərzi və tarixi haqqında fikir söyləmək olar. Xalqın mətbəxi onun tarixidir və demək olar ki, onun yaşıdıdır. Qədim yazılı mənbələrdə, səyyahların, diplomat və tacirlərin gündəliklərində Azərbaycanın ləziz təamları barədə valehedici qeydlər yazılıb.**

Yüksək dad-tam keyfiyyətləri ilə dünyada məşhur olan milli mətbəximiz təkcə xörəklər, onların hazırlanma texnologiyasının üsulları deyil, həm də maddi mədəniyyətin əsas hissələrindən biridir. Kulinariya tarixini araşdıranlar qeyd edir ki, Azərbaycan milli mətbəxi mətbəx mədəniyyətini, onun tarixini, fəlsəfəsini, süfrə psixologiyasını, adətləri, fiziologiyanı, gigiyenanı, kimyanı, avadanlığı, etikanı, estetikanı, poeziyanı və mətbəxin sair aspektlərini, eləcə də Azərbaycan xalqının tarixən ətraf mühitlə tam harmoniyada yaşadığı ərazilərdə yaratdığı praktik vərdişləri özündə ahəngdar şəkildə birləşdirir. Tədqiqatçılar onu da vurğulayır ki, Azərbaycan milli mətbəxi Azərbaycan xalqının bacarığı ilə onun tarixən yaşadığı indiki Azərbaycan Respublikası, Güney (İran) Azərbaycanı, indiki Ermənistanın azərbaycanlılardan zorakılıqla təmizlənmiş qədim İrəvan xanlığı, Zəngəzur və Göyçə mahallarının torpaqlarında, Gürcüstanda azərbaycanlıların tarixən yaşadıqları bölgələrdə (Borçalı), Dağıstan ərazisində, o cümlədən keçmiş Azərbaycan xanlıqlarından birinin mərkəzi olmuş Dərbənd və ətrafında yaradılıb.

Spesifik mətbəx mədəniyyəti ilə seçilən Azərbaycan xalqı elə xörək növləri, şirniyyat çeşidləri yaradıb ki, dünyada onların oxşarı yoxdur. Azərbaycan mətbəxinin ənənəvi yeməkləri, şirniyyatları bu gün ölkəmizə gələn turistlərin, iş adamlarının, diplomatların hədsiz dərəcədə xoşuna gəlir. Bu gün müxtəlif tədbirlər çərçivəsində ölkəmizdə və ölkəmizdən kənarda milli mətbəximizin tanıtımı, təbliği həyata keçirilməkdədir. Bu fakt olsa da, bədnam qonşularımız olan ermənilər uzun illərdir mili mətbəximizin bir sıra xörək və şirniyyat növlərini öz adlarına çıxmaqda davam edirlər. Onlar nəinki tədbirlər çərçivəsində, hətta dünyanın müxtəlif ölkələrinin televiziyalarında gedən kulinariya proqramlarında Azərbaycan mətbəxinə xas xörək və şirniyyatları öz adları ilə təqdim etməkdən çəkinmirlər. Hətta beynəlxalq kulinariya festivallarına da ermənilər bizim xörəklərimizlə çıxırlar. Bu, acı təəssüf doğurur və Azərbaycan kulinarları bununla mübarizə aparırlar. Ancaq mübarizə hələ də lazımi nəticəni vermir. Çünki ermənilər bizdən qabağa düşərək bu xörəklərin çoxunu öz adlarına təqdim etməyi bacarıblar.

Azərbaycan milli kulinariyasının dünyada təbliğinin daha geniş səviyyədə həyata keçirilməsinə ehtiyac var. Kulinarlar bildirir ki, mümkün qədər Azərbaycan kulinarlarının dünyaya çıxışı baş verməlidir. Mətbəximizin təbliği sistemli şəkildə həyata keçirilməli, bu sahəyə təsadüfi adamların müdaxilə etməsinə imkan verilməməlidir. Milli mətbəximizin təbliği sistemli şəkildə, xüsusi konsepsiya əsasında təqdim edilməlidir ki, görülən işlərin nəticəsi daha da müsbət olsun.

Məhz bu yaxınlarda "Azərbaycan kulinariyasının təbliğat perspektivləri" mövzusunda keçirilən konfrans da milli mətbəx mədəniyyətimizin dünyada tanıdılmasına bir töhfədir. Qeyd ki, konfrans Dövlət Turizm Agentliyinin (DTA) təşkilatçılığı ilə Azərbaycan mətbəxinin təbliğatı istiqamətində beynəlxalq əməkdaşlıq imkanlarının qiymətləndirilməsi, eləcə də qastroturizmin inkişafı ilə bağlı məsələlər çərçivəsində keçirilib.

DTA sədri Fuad Nağıyev son illərdə Azərbaycanın qastronomiya destinasiyası kimi təbliği istiqamətində çoxistiqamətli işlərin həyata keçirildiyini qeyd edib. Fuad Nağıyev zəngin kulinariya ənənələrimizin dünyaya çatdırılması, bu istiqamətdə təbliğat işinin gücləndirilməsi məqsədilə beynəlxalq təşkilatlarla əməkdaşlığın daha da genişləndiriləcəyini vurğulayaraq, ölkə rəhbərliyi tərəfindən turizmin inkişafına xüsusi diqqət ayrıldığını bildirib: "Azərbaycan zəngin və qədim kulinariya ənənələrinə malikdir. Sirr deyil ki, Azərbaycan mətbəxi özünəməxsus dadları ilə seçilir. Bu gün bütün dünyada qastroturizm turizmin maraqlı və fərqli sahəsi kimi inkişaf etməkdədir. Dünya təcrübəsində qastronomik turların, eləcə də yeni dadların axtarışında olan turistlərin sayı artmaqdadır. Turistlər səfər etdikləri ölkənin milli mətbəx nümunələri ilə tanış olmaq, yeni dadlar kəşf etmək istəyirlər. Odur ki, qastroturizmin inkişaf etdirilməsi vacib istiqamət sayılır".

Onun sözlərinə görə, Azərbaycanın zəngin təbiəti, əlverişli iqlimi, məhsuldar torpaqları burada yetişdirilən məhsulların təbiiliyinə, dadına, çeşidinə birbaşa təsir edir və özündə geniş potensial ehtiva edir. Bu potensial ölkəmizin "qastronomiya ölkəsi" kimi də tanınması üçün geniş imkanlar yaradır. Dünya təcrübəsini, beynəlxalq standartları və inkişaf istiqamətlərini əsas götürərək ölkəmizdə milli kulinariyanın inkişafı əsas məqsədlərimiz sırasındadır. Bu baxımdan son dövrlərdə Dünya Kulinariya Cəmiyyətləri Birliyi ilə tərəfdaşlıq münasibətlərimiz uğurla inkişaf edir. "Biz Dünya Kulinariya Cəmiyyətləri Birliyi ilə əməkdaşlığı, həmçinin təşkilatın dünya qastronomiyasının inkişafına verdiyi töhfələri yüksək qiymətləndiririk. Son illərdə Azərbaycanın qastronomiya destinasiyası kimi təbliği istiqamətində çoxistiqamətli işlər görülür. Beynəlxalq standartlar əsasında aşpazlardan ibarət milli komandanın yaradılması, milli mətbəx nümunələrinin tədqiqatı, qastro-tematikalı turizm məhsullarının tərtibatı, ölkəmizin təmsil olunduğu bütün beynəlxalq tədbirlərdə milli kulinariyamızın təbliğatı və bu kimi fəaliyyətləri qeyd edə bilərəm. Ölkəyə gələn xarici turistlərə təqdim etməyə çoxçeşidli turizm məhsullarımız var. Təbiətimiz zəngindir. Əlverişli iqlim şəraiti, məhsuldar torpaqlarımız təbii məhsulların həm çeşidinə, həm dadına öz təsirini göstərir. Qastronomiya turizminin inkişafı yalnız milli mətbəximizi deyil, həmçinin zəngin maddi-mədəni irsimizi, tarixi ənənələrimizi, mədəniyyətimizi də dünyaya tanıtmağa kömək edir. Ölkəmizin təmsil olunduğu bütün beynəlxalq tədbirlərdə milli kulinariyamız, bu sahədə olan turizm potensialı çox geniş şəkildə beynəlxalq ictimaiyyətə təqdim olunur və maraq doğurur", - deyə F.Nağıyev qeyd edib.

Regionların unudulmuş, qədim yeməklərini üzə çıxartmaq, biomüxtəlifliyini qorumaq və yerli qastronomiyanın tanınmasına nail olmaq baxımından bu kimi layihələrin önəm kəsb etdiyini bildirən F.Nağıyev, həmçinin qastronomiya turizminin ölkəmiz üçün çox vacib iki sahəni - turizm və kənd təsərrüfatını birləşdirdiyi üçün regionlarda kiçik sahibkarlığın və ailə biznesinin dəstəklənməsinə, nəticə etibarilə yerli əhalinin gəlirlərinin artması və rifah halının yüksəlməsinə də töhfə verə biləcəyini vurğulayıb: "Agentlik olaraq turizm sahəsində fəaliyyət göstərən bütün ictimai təşkilatlar kimi, kulinariya sahəsində fəaliyyət göstərən ictimai birlikləri də dəstəkləyirik. Hər zaman qeyd etdiyimiz kimi, gücümüz birliyimizdədir. Eyni hədəfə vurmaq üçün çalışmalıyıq. Hesab edirik ki, bugünkü konfrans, xüsusilə bu cəhətdən mühüm əhəmiyyət kəsb edir".

**Azərbaycan Milli Kulinariya Mərkəzinin direktoru Orxan Sadıqov milli mətbəxin qorunmasının ölkəmizin identifikasiyası və milli irsi üçün önəmli amil olduğunu qeyd edib. O, mərkəzin əsas fəaliyyətinin elmi-metodoloji bazanın təkmilləşməsinə yönəldiyini, mərkəzin milli mətbəxi təşviq edən, milli yeməklərin reyestrini yaradan qurumlar üçün istinad mərkəzinə çevriləcək elmi mərkəz olmağı hədəflədiyini vurğulayıb:** "Milli Kulinariya Mərkəzi özünü bu sahədə görmək istəyən aşpazları və biznes sahiblərini əməkdaşlığa dəvət edir. Çünki kulinariya bizə qalan bir irsdir və büdcəyə gəlir gətirir. Biz Milli Kulinariya Mərkəzi olaraq qapımızı hamı üçün açıq qoymuşuq. Özünü bu sahədə sınamaq istəyən hər bir kəs istənilən zaman gələ bilər və onlara dövlət qayğı göstərəcək. Amma nəzərə almaq lazımdır ki, milli mətbəximiz bizim milli irsimizdir".

Kulinar Firuzə Rəsulova isə "Şərq"ə açıqlamasında milli kulinariyamızın və mətbəx mədəniyyətimizin dünyada tanıdılması, düzgün təqdimatının aparılması, milli kulinariya ənənələrinin yaşadılmasında belə mərasimlərin mühüm rol oynadığını bildirib. O həmçinin bu cür tədbirlərin Azərbaycan mətbəxinin təbliğatı istiqamətində beynəlxalq əməkdaşlıq imkanlarını qiymətləndirmək, eləcə də qastroturizmin inkişafı ilə bağlı müzakirələr aparmaq üçün son dərəcə əhəmiyyətli olduğunu deyib: "Mədəniyyətimizin, eləcə də mətbəximizin nümunələrini bəşər mədəniyyətinin inciləri sırasında görmək bizim üçün başlıca məqsəd olmalıdır.

Milli mətbəximizə, xörəklərimizə bayağı çalarlar əlavə edilməsinə, onların adlarının, reseptlərinin təhrif olunmasına, həmçinin milli mətbəx nümunələrimizi öz adlarına çıxmağa, özününküləşdirməyə çalışan bədnam ermənilərə qarşı qətiyyətlə mübarizə aparmalıyıq. Qloballaşan dünyada xalqımızın adət-ənənələrini, süfrə mədəniyyətini qorumaq və yaşatmaq, habelə xaricdə layiqincə təbliğ etmək çox vacibdir.

Azərbaycan mətbəxi dünyanın ən zəngin mətbəxləri sırasında öncül yerlərdən birini tutur. Ölkəmizə gələn əcnəbi qonaqlar məmləkətimizin əsrarəngiz təbiəti, təbii sərvətləri, qədim tarixi, zəngin mədəniyyəti, sürətli inkişafı, müasirliyi, xalqımızın qonaqpərvərliyi ilə yanaşı, bənzərsiz milli mətbəximizdən də ağızdolusu danışırlar. Milli mətbəximiz əcnəbi turistləri, iş adamlarını, idmançıları, sözün əsl mənasında heyran edir. Son dərəcə zəngin olan Azərbaycan mətbəxi, məişət və süfrə mədəniyyəti əsrlər əvvəl də əcnəbi səyyahları cəlb edib".

**Şəymən**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# "Dovşan dodaq" və "qurd ağız" xəstəlikləri

## Körpələrin anomaliyasız doğulması üçün ən vacib şərtlərdən biri hamilə xanımların vaxtlı-vaxtında müayinələrdən keçməsidir

**"Üz-çənə nahiyəsinə aid yenidoğulmuşlarda rast gəlinən bəzi patologiyalar adətən anadangəlmə dodaq-damaq yarıqları, xalq arasında "dovşan dodaq" və "qurd ağız" deyilən xəstəliklərdir". Bunu Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti İsmayıl Fərzəliyev bildirib. Onun sözlərinə görə, bunlar hamiləliyin ilk günlərində rüşeymdə yaranan pozğunluqlar nəticəsində əmələ gəlir və uşaq bu xəstəliklə doğulur.**

Həkim söyləyib ki, bunun da səbəbi müxtəlifdir: "İrsi xəstəliklər, hamiləlik dövrünün problemli keçməsi (müxtəlif dərmanların qəbulu, intoksikasiya, bətndaxili hiopksiya, stres və bəzi şəkərli diabet kimi sistem xəstəlikləri), ətraf mühitin çirklənməsi, ananın pis vərdişləri və nəhayət, qohum evliliyi". İ.Fərzəliyev vurğulayıb ki, dodaq-damaq yarıqları ilə doğulmuş uşaqlarda ən çox rast gəlinən problem qidalanmanın pozulması, hava yolu tıxanıqlığı, xırıltılı tənəffüs, nitqin pozulması, çəki itkisi və s.-dir: "Bunun üçün mütəxəssisə vaxtında müraciət etməli və müalicəyə başlanılmalıdır. Bu patologiyalarla doğulmuş uşaqlar 17-18 yaşına qədər üz-çənə cərrahlarının, orotdontların, loqopedin və pediatrların daimi nəzarəti altında olmalı, onların müayinə və müalicəsini almalıdır. Dodaq yarıqları üçün uşaqlarda "xeyloplastika" ilk 3-6 aylarında, damaq yarıqları zamanı isə "stafiloplastika" və "uranostafiloplastika" 9-18 aylarında aparılması tövsiyə edilir. Cərrahi əməliyyatlar ümumi anesteziya altında aparılır". Mütəxəssis onu da qeyd edib ki, damaqda vaxtından tez aparılan əməliyyat üst çənənin inkişafının pozulmasına, gec isə nitqdə pozulmalara gətirib çıxarır.

**Cərrah-ginekoloq Fəxranə Hüseynzadə "Şərq"ə açıqlamasında körpələrin anomaliyasız doğulması üçün ən vacib şərtlərdən birinin hamilə xanımların vaxtlı-vaxtında müayinələrdən keçməsinin olduğunu qeyd etdi:**

- Biz daim xanımlarımıza məsləhət görürük, tövsiyə edirik ki, müayinələrə ciddi yanaşsınlar. Nəinki hamiləlik dövründə, hamiləlikdən əvvəl də bəzi vacib müayinələr və analizlər var ki, qadınlar bunlara ciddi önəm verməlidirlər. Çünki elə xəstəliklər var, hamiləlik müddətində müəyyənləşdikdə, artıq pasiyentə heç bir köməklik etmək mümkün olmur. Qadın ana olmağı qarşısına məqsəd qoyubsa, sağlam körpənin dünyaya gəlməsi üçün əvvəldən bəzi müayinələrdən, vacib olan analizlərdən keçməlidir. Təbii ki, bir sıra patologiyalar da var ki, onlar hamiləliyin ilk həftələrində görünmür. Hamiləlikdə ilk 11-14 həftə önəmlidir. Həmçinin 19-22-ci həftələr də. Bu müddət ərzində əgər hamilə qadın həkimin məsləhət bildiyi müayiənlərdən keçirsə, anomaliyalar bilinir. Ola bilsin, hamilə xanım hansısa genetik analizlərə göndərilsin. Bunlar çox vacibdir. Həkim anomaliyanın hansı səbəbdən baş verdiyini bilməlidir ki, buna uyğun tədbir görülsün. Ciddi patologiyalar aşkarlandıqda hamiləlik süni yolla sonlandırıla bilər. Əlbəttə, bu zaman həkimin rəyi və pasiyentin də qərarı önəmlidir. Amma hamilə qadın müayinələrə vaxtlı-vaxtında gəlmirsə, vacib olan analizlərdən keçmirsə, doğuş zamanı da problemlər yaşana bilir, körpə doğulduqda hansısa patologiya üzə çıxırsa, bunu düzəltmək çətin olur. "Dovşan dodaq" patologiyası aşkarlanırsa, alt səbəblər - genetik problemin olub-olmaması da yoxlanmalıdır. "Dovşan dodaq", "qurd ağız", yaxud da çənə patologiyası təhlükəli deyil, çünki müəyyən zaman keçdikdən sonra, yenə konkret bu sahə üzrə həkimin təyinatı ilə əməliyyat edilir, problem aradan qalxır. Lakin valideynlər övladlarına nəzarət etməli və zaman itirməməli, körpəni düzgün vaxtda əməliyyata aparmalıdırlar. Cərrahi əməliyyat vaxtını da həkim müəyyən edir, neçə aylığında, hansı yaş dövründə. Əsas odur ki, uşaq bu patologiyalarla böyüməsin, vaxtında qarşısı alınsın ki, bunlar uşağın səhhətində problemlərə səbəb olmasın.

**F.Hüseynzadə bildirdi ki, tibb elmi artıq xeyli inkişaf edib və hamiləlik dövründə aşkarlanan bəzi anomaliyalar döl ana bətnində ikən də aradan qaldırıla bilir:**

- Məsələn, ana ilə körpənin qan qruplarında uyğunsuzluq varsa - buna mənfi rezus faktor deyilir, bu zaman ana bətnində körpəyə qan köçürülə bilir. Yaxud qan damarları ilə bağlı problem aşkarlanırsa, lazer üsulu ilə aradan qaldırılır. Ürək, beyin qüsuru, mədə-bağırsaq sistemində problemlər də müayinələr zamanı aşkarlanır və bunlara qarşı tədbir alınır. Bəzən deyirlər, keçmişdə bu qədər analizlərə göndərilmirdi, bu qədər müayinə tələb olunmurdu. Doğrudur, çünki keçmişdə indi rastlaşdığımız viruslar, xəstəliklər də yox idi. Dölün anormal inkişafına, hamiləlikdə yaşanan patologiyalara ətrafımızdakı hər şey təsir edir: stres, həyəcan, ziyanlı vərdişlər, radiasiya, alkoqol, siqaret, enerji içkiləri, qəhvə, genetik modifikasiya olunmuş qidalar, kimyəvi qatqılı ərzaqlar, hava, su... hər şey. Ona görə də xanımlarımıza məsləhət görürük ki, zamanında ciddi müayinələrdən keçsinlər ki, körpə dünyaya gələndə "niyə belə oldu?!" sualı qarşısında aciz qalıb, ömürlərinin sonunadək özlərini qınamasınlar.

**Məlahət Rzayeva**

# Yumurtanın qiyməti artıq 20 qəpiyə qalxıb

## Yerli istehsalın 100 faiz bahalaşması nə deməkdir?



***"Deməli, rəqabət mühiti yoxdur, monopoliya yenə öz "qanununu" diktə edir"***

**ABŞ-də quş qripi epidemiyası yumurta istehsalını azaldıb. İnflyasiya səbəbindən qiymətlər rekord həddə yüksəlib. Epidemiyadan zərər çəkmiş yumurtlayan toyuqların sayı 43 milyonu ötüb.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, ABŞ Kənd Təsərrüfatı Nazirliyinin ərzaq qiymətləri ilə bağlı hesabatına görə, milyonlarla toyuğa keçən ilin fevral ayında başlayan quş qripi epidemiyası təsir edib. 47 ştatda 60 milyona yaxın quş məhv edildiyi halda, epidemiyadan təsirlənən yumurta verən toyuqların sayı 43 milyonu ötüb. ABŞ yumurta ehtiyatları keçən ay 2022-ci ilin əvvəlindən 29 faiz azalıb, çünki yumurta tədarükü təkrarlanan epidemiyalar səbəbindən kəskin düşüb.

Bizimkilərin qulaqlarından iraq. İndi də quş qripini bəhanə edib, yumurtanın qiymətini "əlüstü" qaldırarlar. Zatən, yumurtanın qiyməti əl yandırır. "Kənd yumurtası"nın qiyməti 35-40 qəpik, broyler yumurtası isə 19-20 qəpiyədir. Məlum məsələdir, yumurta ən çox istehlak olunan məhsullara aiddir və bu məhsul əlavə dəyər vergisindən də azaddır. Məhz ən çox istehlak olunan məhsullara aiddir deyə ƏDV-dən azad edilib ki, qiymət artımının qarşısı alınsın, lakin işbazlar bundan daha çox gəlir əldə etmək məqsədilə yararlanır.

**İqtisadçı Fuad İbrahimov "Şərq"ə açıqlamasında qeyd etdi ki, pandemiyaların ərzaq məhsullarının istehsalına mənfi təsir göstərməsi gözlənilən haldır:**

- Pandemya, infeksiya yönümlü xəstəliklər elə vəziyyət yarada bilər ki, nəinki qiymət artımı baş verər, hətta istehsal da dayanar, istehsal edilmiş məhsullar satışdan çıxarılar, məhv edilər və nəticədə qıtlıq yaranar. Lakin "quş qripi" ilə bağlı, hesab edirəm ki, belə bir vəziyyətin yaranması ən az ehtimal ediləndir. Çünki "quş qripi" qarşısı alına bilən infeksiyalara aiddir. Yəni bu virus yeni deyil, dünya artıq illərdir onu tanıyır, onunla mübarizə, qarşısının alınması üsulları da bəllidir. Xüsusən broyler təsərrüfatları bu işləri bilir, qabaqlayıcı tədbirlər görürlər. Əslində görməlidirlər. Odur ki, istehsalın azalması, quşlar arasında tələfat qısa bir mərhələni əhatə edir. Sadəcə, nəzarət olmalıdır ki, əlverişsiz vəziyyətdən sui-istifadə edilməsin. Müəyyən zamanlarda biz yumurtanın qiymətində artım olduğunu görürük. Baxmayaraq ki, bu məhsul ƏDV-dən azaddır, yenə də qiymət artımı baş verir. İstehsalçılar bunu yemin qiyməti, idxal olunan hansısa digər komponentlərin qiymətindəki artımla əsaslandırmağa çalışırlar. Amma nəzərə almaq istəmirlər ki, axı istehsalçılar üçün də güzəştlər var. Quşçuluq avadanlıqları, profilaktika və diaqnostika məqsədilə, xəstəliklərə qarşı istifadə edilən preparatlar ƏDV-dən azaddır. Bu güzəştlər sahibkarlar ziyanla işləməsin, yerli istehsal artırılsın deyə edilir. Hökumət bazar iqtisadiyyatı tələblərinə uyğun olaraq sahibkarlıq subyektlərinə müdaxilə etmir, amma nə görürük, elə bu yumurtanın qiyməti 12-15 qəpikdən 20 qəpiyə qalxıb artıq. Yerli istehsalın 100 faiz bahalaşması nə deməkdir? Deməli, rəqabət mühiti yoxdur, monopoliya yenə öz "qanununu" diktə edir. İstehsal sahələri çoxalmalıdır ki, bolluq olsun, o zaman qiymət avtomatik düşəcək.

**Məlahət**

# Böyük aktrisanı itirdik

## Tünzalənin özü üçün yaşamağa vaxtı qalmadı

**Azərbaycan mədəniyyətinə ağır itki üz verib. Əməkdar artist, 49 yaşlı aktrisa Tünzalə Əliyeva uzun sürən xəstəlikdən sonra vəfat edib. Heydər məscidində baş tutan vida mərasimində aktrisanın ailə üzvləri, sənət dostları, ictimaiyyət nümayəndələri iştirak ediblər. T.Əliyeva "Qurd qapısı" qəbiristanlığında dəfn olunub.**




*Ən böyük acını bizə ən böyük xoşbəxtlik, gülüş yaşadanlar yaşayır*

"Toppuş bacı" obrazı ilə tanınıb, sevilən aktrisa hər obrazı ilə tamaşaçıları güldürdü, sevindirdi. Amma özü sonacan sevinib gülə bilmədi. Onu qəfildən yaxalayan bu ağır xəstəlik həyatının və sənətinin ən çiçəkləndiyi bir vaxtında sevənlərindən ayırdı. Xəstəliyinə, ağrılarına rəğmən son anlarına qədər üzündə gülüş, təbəssüm yaratmağa çalışan "Toppuş bacı"nın ölümü onu sevənləri kədərə qərq edib.

Dəfn mərasimində iştirak edən aktrisa Dilarə Əliyeva da hönkür-hönkür ağlayıb. O, Tünzalə Əliyeva ilə bağlı xatirələrindən danışıb. Dilarə aktrisanın vəfatından dərin kədər hissi keçirdiyini ifadə edib: "Çox inanırdım ki, o, geri qayıdacaq. O qədər həyat dolu idi ki. Azərbaycan tamaşaçısı onu çox sevirdi. Tünzalə kimi böyük aktrisamızı itirdik. Ötən gündən hər kəs onun üçün göz yaşı tökür. O mənim gözümü yolda qoydu. Onu gözləyə-gözləyə qaldım. Çox inanırdım ki, o, geri qayıdacaq. O qədər həyat eşqi var idi ki... Azərbaycan televiziyası, kinosu, teatrı Tünzalənin timsalında çox böyük aktrisanı itirdi".

Vida mərasiminə qatılanlardan biri də aktrisanın həmkarı Xuraman Əlizadə olub.

**O, oğlu Əlinin Tünzalənin ölümünə çox pis olduğunu deyib:**

"Sonuncu dəfə yazdı ki, bəlkə xətrivə dəymişəm. Cavab yazmadım. Bir-iki gündən sonra yazdım. Dedi yaxşı deyiləm. Sanki halallıq alırdı. Biz Tünzalə ilə çox yaxın idik. Uşaqlarımız da çox yaxın dost idilər. Mənim oğlum Əli Tünzaləni soruşur. Dedim Tünzaləni Allah apardı, o da əsəbiləşir, deyir niyə elə etdi? Mən də ona başa salıram ki, Tünzalə xala artıq cənnətdədir, mələkdir. Ondan sonra bir az özünə gəldi. Dedi onda Zəhranı tez-tez görərik, onunla dostluğumuz davam edər".

**X.Əlizadə Tünzalənin mədəkiçilmə əməliyyatından da söz açıb:**

"Düşünürəm ki, Tünzalənin bu xəstəliyə yoluxmasında mədəkiçiltmə əməliyyatının da öz rolu olub. Bəlkə də ondan əvvəl olub və ya ondan sonra olub. Məncə, mədəkiçiltmədən sonra normal qidalanmaq lazım idi, lakin Tünzalə yaxşı qidalana bilmirdi. Nəsə yeyəndə mədəsinə toxunurdu, özünü pis hiss edirdi. Mən ona bir dəfə sual verdim ki, "bilsən ki, bu xəstəliyə yaxalanacaqsan, yenə əməliyyat etdirərdin?" dedi ki, "hə". O, bəlkə də öz səhhəti üçün, ya da görünüşünü sevmədiyi üçün bu əməliyyatı etdirdi, ancaq çox təəssüf. Mən onu dəhşət çox istəyirdim. Allah rəhmət eləsin!".

**Aktrisa Sonaxanım Əliyeva:**

- Sonuncu görüşümüzdə demişdi ki, 6 ay ömrüm qalıb. Nə 6 ay, heç bir ay çəkmədi. Həmişə deyirdi Sona, yorulmuşam. Ağrılara dözə bilmirəm. Dərmanlara bədənimin taqəti qalmayıb. Amma bilirəm ki, yaşamalıyam. Balama görə buna məcburam. Biz onun yaşamasını çox istəyirdik. İnanırdıq ki, Allah bir möcüzə yaradacaq.




**Müğənni Nadir Qafarzadə isə "Oxu.az"a açıqlamasında "Toppuş bacı"nın ölümünə inanmadığını deyib:** "Heç vaxt düşünməzdim ki, nə vaxtsa onun dəfnində iştirak edərəm. Xəstə olanda da eyni əhval-ruhiyyədəydi. İnsanları güldürsə belə, hər zaman dərdli olub. Əlacsız idi. Onu ən çox övladının tək qalması incidirdi. Heç vaxt düşünməzdim ki, onun dəfninə gələrəm. Atasının belinin bükülməyi məni sarsıtdı. Səbr diləyirəm". N.Qafarzadə qeyd edib ki, Tünzalə Əliyevanın ölümü Azərbaycan incəsənəti üçün ağır itki oldu: "Biz kimisə itirəndən sonra qədrini bilirik. Həmişə qınayıblar. Heç kəs xoş günündən kiməsə ağız açmaz. Azərbaycan incəsənətinə ağır itki oldu".

**T.Əliyevanın vida mərasimində iştirak edən sənət dostu Çimnaz Sultanovanın sözlərinə görə, mərhum aktrisa sona qədər mübarizə aparıb:** "O həmişə tamaşaçılarının yaddaşında toppuş bacı kimi qalacaq. Ömür boyu bizi güldürüb, indi ağladır. Çox güclü qadın idi, mübarizə aparırdı". Ç.Sultanova qeyd edib ki, onun obrazları hər zaman yaşayacaq. "Böyük bir itkidir. Həmişə bizimlə qalacaq. Onun oynadığı obrazlar unudulmayacaq. Mən inanmırdım ki, nəsə baş verər. Arzuları var idi. Sonuna qədər deyirdi ki, yaşayacağam".

Dəfn mərasimində teleaparıcı Zaur Baxşəliyev deyib ki, Tünzalənin özü üçün yaşamağa vaxtı qalmadı: "Sonuncu dəfə xəstəxanadan yazmışdı. O da özünə görə deyildi. Bir gənc müğənnini efirə çıxarmaq istəyirdi. Bu həyatda heç nəyi özünə görə etmədi. Onu ayaqda saxlamağa çalışdıq. Lakin görünür, yazılana pozu yoxdur".

**Z.Baxşəliyev qeyd edib ki, Tünzalə qızına görə yaşamaq istəyirdi:**

"Həmişə deyirdi ki, Zəhraya görə yaşamaq istəyir. Tünzalə özü üçün yaşamadı. Doğmaları üçün yaşadı. Onun özü üçün yaşamağa vaxtı qalmadı".

**Sənət dostu Rafael İsgəndərov isə deyib ki, xahiş etmişdi ki, onun üçün dua edək.**

Onun sözlərinə görə, mərhum aktrisa ilə sonuncu dəfə bu yaxınlarda danışıb.

"Sonuncu telefon danışığımızda xahiş etdi ki, dua edək. Çox pozitiv idi, xəstəlik onu mənən sındıra bilmədi. Əzizlərinə Allahdan səbr diləyirəm.

**Jurnalist Hacıbəy Heydərli isə T.Əliyeva ilə bağlı düşüncələrini özünün sosial hesabında qeyd edib:** "Toppuş bacı" uşaqlığımızın xatirəsi idi. Hər həftə "Çal-çağır" verilişində izləyirdik, pozitiv insan idi, həmişə üzü gülürdü. Ancaq o gülüşün içində dünya boyda bir kədər yatırmış, o kədər, o niskin "Toppuş bacı"ya xərçəngi bəxş etdi, Tünzalə xanım gözümüzün önündə əridi, arıqladı, zəiflədi, çarəsiz duruma düşdü. Son gününə qədər tiktokda canlı yayımlarda idi, dəfələrlə şahidi olmuşdum ki, canlı yayımlarda saçının keçəl olmasına ilişirdilər, bəzi həmkarları onun pul yığmasını lağa qoyurdu. Bu gün "Toppuş bacı" öz ölümü ilə o adamları susdurdu, hamısı ona rəhmət oxumağa başladı.

Sağlığında kədərini görmədiyimiz adamlar öz ölümünü bizə hədiyyə edir, ən böyük acını bizə ən böyük xoşbəxtlik, gülüş yaşadanlar yaşayır. Bir mahnının verdiyi xoşbəxtliyi bizə verə bilməyən insanları həyatımıza alırıq...".

**Şəymən**



## Sinir sıxılmasının müalicəsi var

Vaxt itirmədən həkimə müraciət edin

**"Daha çox əllərdə və ayaqlarda görülən sinir sıxılması, ümumiyyətlə həkimlə məsləhətləşmədən, təsadüfi müalicələrlə gecikdirilir, ancaq əhəmiyyət verilməyən problem, iflic riskini də özü ilə gətirir".**

**Bu sözləri "Şərq"ə açıqlamasında fizioterapevt-reabilitoloq Ramin Quliyev deyib.**

Onun sözlərinə görə, sinir sıxılması deyə bilinən və müalicəsi olmayacağı düşünülərək zaman itirilən problemlər, zaman keçdikcə həqiqətən dönməz problemlərə yol aça bilər: "Sinirlər onurğa iliyindən çıxdıqdan sonra bədənə dağılırlar, bəzən sümüklərin arasında ya da əzələ, bağ hissiyatı kimi hərəkətli yerlərdə yerləşir. Onurğa iliyindən çıxışdakı sıxılma bel və boyun yırtıqlarında ola bilər. Qol və ayaqlardakı tıxaclarında isə ümumiyyətlə əl biləyi, dirsək, omba, diz və ayaq biləyində olur.

Məsələn, əl biləyimizin əzələlərin sümüyə yapışdıqları tunel kimi əlimizə gələn sinir olan median sinirin sıxılmasıyla əl və biləkdə ağrı, uyğunlaşma, hissiyatsızlıq olur. Uzun sürən, irəliləmiş Karpal tunel hadisələrində ovuc içi və xüsusilə baş barmaqla əlaqədar əzələlərdə gücsüzlük və incəlmə inkişaf edir. Əl biləyini sıx istifadə edən insanlarda (kompüter və ya mobil rabitə qurğuları sıx istifadə edən, və s.) sinirin örtüyündən sərtləşmə və qalınlaşma inkişaf edər, qalınlaşmaya bağlı sinir sıxılır .., gecə hərəkətsizliyə bağlı dövran yavaşladığından, səhər oyanıldığında əldəki uyğunlaşma diqqətə çarpan olur. Səhərlər əşyaları tutmaq, qavramaq çətinləşməkdədir. Bəzi xəstələr gecə əlindəki ağrı və uyğunlaşma ilə oyanmaqdadır.

Adamda həm boyun yırtığı olub həm də əl biləkdə ya da dirsəkdə sinir sıxılması görülə bilər. Boyun yırtığı müalicə edilərkən digər problem gözardı edilib, yirtiqa bağlı deyə düşünülərək uyğun müalicə verilməsə gecikdirerek, xəstə üçün risk meydana gətirə bilər. Ayaqda keylik olan xəstəyə MRT çəkilərək, bel yırtığı əməliyyatı edilməsi və şlikayetinin keçməməsi cox rast gelirik. Omba bölgəsindəki oturaq sinir sıxılması olan piriformis sindromu baxımından adam deyerlendirilmezse boşuna əməliyyat olmuş olur".

**Şəymən**

# Keçmiş məcburi köçkünlər üçün tikilmiş evlər satılır

## Bu əmlak bazarında qiymətlərin nisbətən stabilləşməsinə gətirib çıxaracaq

**Keçmiş məcburi köçkünlər üçün tikilmiş mənzillərin onlayn satışına başlanılıb.**



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən (ƏƏSMN) "Şərq"ə verilən məlumata görə, nazirlik tərəfindən Bakının Ramana, Ümid, Kürdəxanı qəsəbələrində, Abşeron və Samux rayonlarındakı yeni yaşayış binalarında olan mənzillərin (ms.sosial.gov.az) portalı üzərindən onlayn satışına başlayıb.

Bu portal artıq bir müddət əvvəl vətəndaşların istifadəsinə verilib və qeyd olunan mənzillərdən almaq istəyən şəxslərə portala daxil olaraq mənzillərlə tanış olmaq və mənzil seçmək imkanı yaradılıb.

Mənzillər tam təmirlidir, istifadə olunmayıb və çıxarışlıdır, onları banklara müraciət etməklə ipoteka krediti ilə də almaq olar.

Bir hüquqi və ya fiziki şəxs satılan mənzillərdən istədiyi sayda mənzil ala bilər. Mənzillərin qiyməti müstəqil qiymətləndirici tərəfindən qanunvericiliyə uyğun olaraq müəyyən edilib. Mənzillərin portal üzərindən satışı 01.07.2023-cü il tarixinədək davam edəcək.

Satışdan əldə olunan vəsait ölkəmizin digər bölgələrində şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzil və fərdi evlə təminatına yönəldiləcək. Qeyd edək ki, Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sifarişi əsasında Bakı şəhəri Sabunçu rayonunun Ramana qəsəbəsində, Qaradağ rayonunun Ümid qəsəbəsində, Binəqədi rayonunun Xocəsən qəsəbəsində, Abşeron, Lənkəran və Samux rayonlarında inşa edilmiş çoxmənzilli binalarda, həmçinin Bakı şəhəri Sabunçu rayonunun Kürdəxanı qəsəbəsində və Abşeron rayonunda inşası davam etdirilən çoxmənzilli binalarda yerləşən mənzillərin satışı qaydası Prezident İlham Əliyevin imzaladığı fərmanla müəyyən edilib.

**Daşınmz əmlak eksperti Elnur Fərzəliyevin "Şərq"ə açıqlamasına görə, keçmiş məcburi köçkünlər üçün tikilən evlərin satışa çıxarılması əmlak bazarında qiymətlərin nisbətən stabilləşməsinə gətirib çıxaracaq:** "Satışa çıxarılan əmlakların satış qiymətləri həmin ərazilər üçün ən minimal qiymətlərdir. Məcburi köçkünlər üçün tikilən evlər dövlət layihəsidir və torpaq dövlət tərəfindən verildiyinə, həmin qurumun tikinti şirkəti kimi maddi marağı olmadığına görə bu mənzillər digərləri ilə müqayisədə aşağı qiymətə təklif edilir. Düzdür, təklif edilən ərazilər mərkəzdən uzaq olduğundan bahalı deyil, amma nəzərə almalıyıq ki, yaşayış massivləridir, əhalinin axını sürətlidir. Bu baxımdan həmin mənzillərin qısa müddət ərzində satışı bitəcək".

Ekspertin sözlərinə görə, mənzillər çıxarışlı olduğuna görə bəzi vətəndaşlar kredit, yaxud nağd yolu ilə ala bilərlər: "İstənilən halda daşınmaz əmlak bazarında maddi vəziyyəti aşağı olan vətəndaşların evsizlik problemi müəyyən qədər aradan qalxacaq. Çünki Bakıda və yaxud da Bakıətrafı ərazilərdə təmirsiz mənzillərin bir kvadratmetri 800 manatdan baha satılır. Son zamanlar bazarda çox dəyişikliklər var. Tikinti materiallarının bahalaşması xərcləri çox artırıb. Eyni zamanda torpağın bahalaşması, sənədləşmə məsələsinin çətinliyi mənzillərin bahalaşmasına gətirib çıxarıb. Bu tip sosial layihəni MİDA kvadratı 800-900 manata təmirli mənzilləri o kateqoriyadan olan insanlara sata bilirdi. Burada da ona oxşar bir qiymət olacaq. Çünki dövlət layihəsi olduğuna görə onlar bəzi vergilərdən azad olurlar, torpaq sahəsi pulsuz olur və digər şirkətlər kimi xərci olmur. Qiymətlərin aşağı olması isə əmlak bazarındakı süni qiymət artımının qarşısını alacaq. Çünki söhbət 2000-ə yaxın mənzilin satışa çıxarılmasından gedir. Bu gün hansısa metrostansiyanın ətrafındakı köhnə tikili binadakı birotaqlı mənzilin satış qiyməti 60-80 min manatdır. Yeni tikililərdə isə bu məbləğ yerindən asılı olaraq 100-150 min arasındadır. Mərkəzdən ev almaq istəyən insanlar qiymətlərdən asılı olmayaraq öz seçimini edəcək. Amma "kirayə qalmaqdansa evim olsun" prinsipi ilə ev axtaran insanlar bu mənzilləri əldə etməyə çalışacaq".

Dövlət layihəsi ilə tikilən binalarda ümumi sahənin böyük olmadığını vurğulayan E.Fərzəliyev deyib ki, yeni tikili mənzillərdə qiymətlərin süni şişirdilməsinə səbəb ümumi sahənin böyük olmasıdır: "Bu binalarda birotaqlı mənzillərin sahəsi 50-60 kvadratdan yuxarı olur. İkiotaqlı mənzillər 80-100 kvadrat olur. Bunun da bir kvadratını 2000 manatdan hesabladıqda 100-200 mini keçir. Ancaq dövlət layihələri ilə tikilən binalarda ümumi sahə yığcam olur və kvadrat itkisi olmadığına görə ümumi qiymət də az görünür".

**Şəymən**

## "Nar"ın dəstəyi ilə keçirilən "Breyn Rinq" bilik yarışında mübarizə daha da gərginləşir



**"Nar"ın dəstəyi ilə 20-ci mövsümü keçirilən "Breyn Rinq" intellektual oyununda mövsümün tən yarısı geridə qalıb.**

Yarışın yarıdan çox hissəsinin geridə qalmasına baxmayaraq iştirak edən bütün komandaların çempionluğa şansları hələ də qalmaqdadır. Bu səbəbdən də 20 komandanın iştirak etdiyi oyunda mübarizə daha da gərginləşir. Bu komandalar Azərbaycanın 10 bölgəsini və 7 universitetini təmsil edir. Mobil operatoru təmsil edən "Nar" komandası da Yüksək liqada yer alır. Ölkənin intellektual inkişafında böyük rol oynayan "Breyn Rinq" yarışını hər həftənin bazar günü saat 18:20-də İctimai Televiziyadan izləyə bilərsiniz.

Elm və təhsilin inkişafına dəstək "Nar"ın əsas KSM istiqamətlərindən biridir. Mobil operatorun həyata keçirdiyi sosial layihələr haqqında ətraflı məlumatı nar.az səhifəsindən əldə etmək olar.

## Azərbaycan filmi 8 beynəlxalq festivalda qalib oldu



**Müstəqil kinematoqrafçılar tərəfindən istehsal olunan qısametrajlı "Qız qalası" filmi bir neçə nüfuzlu beynəlxalq festivallarda ölkəmizi təmsil edərək kino sənayesinin inkişafına öz töhfəsini verib.**

Axşam.az xəbər verir ki, film İtaliya, Türkiyə, ABŞ, Sinqapur, Rumıniya, Litva, Norveç, Slovakiya kimi ölkələrin müxtəlif festivallarında qalib olub.

Qeyd edək ki, filmin rejissoru və ssenari müəllifi Mehdi Ağayevdir. Baş rolları Könül Cəfərzadə, Türkay Cəfərli və Kamran Ağabalayev ifa ediblər.

Müasir cəmiyyətdə mövcud olan problemləri kino dili ilə üzə çıxaran filmin Azərbaycanda premyerası 2023-cü ilin fevral ayında baş tutacaq.

**Elan**

03.02.2023 tarixindən etibarən, "Yerlim" tarifində dəyişikliklər gözlənilir. Daha ətraflı məlumat üçün www.nar.az/yerlim səhifəsinə daxil ola bilərsiniz.

**Elan**

Məmmədov Pərviz Sahibəli oğluna verilmiş Ağciyər İnstitutu, Bakı Sağlamlıq, bülleten itdiyi üçün etibarsız sayılır.

"Şirin Tikə" MMC-yə məxsus möhür itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330
Tirajı: 1550 Sifariş: 224



## Qubada şəlalələr dondu

### Əsrarəngiz təbiət mənzərəsi yaranıb

**Quba rayonundakı Afurca və Suatan şəlalələri donaraq əsrarəngiz təbiət mənzərəsi yaradıb.**

Azərtac-ın bölgə müxbiri xəbər verir ki, Afurca şəlaləsi Quba rayonunun cənubunda yerləşir. O, təbiətin yaratdığı ən gözəl abidələrdən biri hesab olunur. Təxminən 75 metr hündürlükdən axan şəlalə geoloji təbiət abidəsi kimi qeydə alınıb və dövlət tərəfindən mühafizə edilir.

Afurca kəndi rayon mərkəzinin 36 kilometrliyində, dəniz səviyyəsindən 1200 metr hündürlükdə yerləşir. Dağdan tökülən şəlalənin gözəlliyinə tamaşa etmək üçün meşədən keçən 200 metr yolu piyada qət etmək lazımdır.

Afurca şəlaləsi Vəlvələ çayının Təngə dağından axan hissəsidir. Yay aylarında Quba-Afurca istiqamətində səfərə çıxanlar təbiətin bu gözəlliyinə tamaşa etməyi çox sevirlər. Xınalıq, Qəçrəş kəndləri ilə yanaşı, Afurca şəlaləsi də turist sıxlığına görə ilk yerlərdə durur.

El arasında Suatan adı ilə tanınan şəlalə isə Quba rayonunun Künxırt kəndi ərazisində yerləşir. Təxminən 30 metr hündürlükdən axan şəlalə Quba-Qonaqkənd yolunun yaxınlığında, rayon mərkəzidən 35 kilometr aralıdadır.

## Ötən il Azərbaycanda 61 üçəm...

### ...Bir dördəm, bir beşəm doğulub



**2022-ci ildə qeydiyyat orqanları tərəfindən 120 mindən artıq şəxsin doğumu qeydə alınıb.**

Ədliyyə Nazirliyindən APA-nın sorğusuna cavab olaraq bildirilib ki, onlardan 1789-u əkiz, 61-i üçəm, 1-i dördəm, 1-i isə beşəm olub.

## Qripdən sonra spirtli içki tromb yaradır



**Qrip və koronavirusun yeni ştammına yoluxanlar xəstəlik dövrü və sonra alkoqollu içkilərdən uzaq durmalıdır.**

"Medicina" xəbər verir ki. immunoloq Vladimir Boliboks bu barədə danışıb. "Bu içkilər tromboz riskini artırır. Hazırda yayılmış qrip virusları ürək damar sistemin<br>ə hücum edən, həm də xüsusilə damarların daxili qişasını zədələyən virusdur. Onlar qanda qatılaşma yaradır.

"Spirtli içkilər susuzluğa səbəb olur. Statistika göstərir ki, həmişə infarkt, insult və əzaların trombozu infeksion xəstəliklərdən sonra artır.Əgər bu virusları keçirmisizsə, bir müddət içkidən uzaq durmalısız"



# Hər detalı dəhşətlidir

## Hitler üçün uşaq doğdu, körpəsini atıb getdi

**Faşistlərin əsas hədəflərindən biri "təmiz irq"ə sahib olmaqdı. Onların düşüncəsinə görə, ölkədə yalnız təmiz irqə mənsub olanlar yaşamalıydı. Faşistlər almanların uzaq keçmişdə Skandinaviyada yaşamış proto-ariyan irqindən törəmə olduğu fikrini irəli sürərək, skandinav-alman qarışığından əmələ gələnləri ən yüksək - ali irq hesab edirdi. Bu irq mənsublarının sayının çoxalması üçün Faşist Almaniyasında "Lebensborn" proqramı tərib edilib və icrasına başlanılıb.**

"Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, proqramın icrasına 1930-cu ildə başlanılıb, nəticədə Almaniya və Norveçdə 20 min körpə dünyaya gəlib. Yüksək ali irqə mənsub olacaq körpələrin dünyaya gətirilməsi üçün cütlüklər də xüsusi olaraq seçilib. Ali irqə mənsub körpə dünyaya gətirmək üçün seçilən qadınlardan biri Hildegard Trutz olub. Bu qadının başlıca vəzifəsi Hitler üçün körpə dünyaya gətirmək olub. Qadın bu barədə illər sonra etiraflar edib. Onun danışdıqları inanılmaz və dəhşətlidir. Hildegard 1933-cü ildə Alman Qızlar Birliyinə üzv olub. Hər bazar günü birliyin toplantılarına qatılıb, uzun ayaqları, münasib bədəni, sarı saçları, mavi gözləriylə diqqəti cəlb edib. Hildegard özünün də ali irqə mənsub körpə dünyaya gətirmək istəyinin yüksək olduğunu, ideyalarını qəbul etdiyi faşizmə xidmət göstərmək istədiyini etiraf edib. 18 yaşlı Hildegard birlik rəhbərindən həyatını dəyişdirəcək təklif alıb: "Hansı işlə məşğul olacağınızı bilmirsinizsə, niyə Fürer (Adolf Hitler) üçün uşaq dünyaya gətirmirsiniz? Almaniyanın ali irq körpələrinə çox ehtiyacı var". Hildegard məlum məsələylə bağlı dövlət proqramının olduğunu bilirdi və birlik rəhbərinin sözləri onu təsirləndirmişdi. Bununla da gənc qız proqrama qatılmaq qərarı verib. Bir sıra tibbi müayinələrdən keçirilib. Onu Bayerndəki düşərgəyə göndəriblər. Burada lyüks şəraitdə saxlanılan başqa qızlar da olub. O da başqa qızlar kimi ali irqli körpə dünyaya gəlsin deyə, Almaniya ordusunun xüsusi xidmət əsgərləri, SS-çilərlərdən biri ilə evlənməliydi. "O günlər həyatımın ən gözəl günləri idi. Ən yaxşı yeməklər yeyirdik, işə cəlb olunmurduq, ətrafımızda xeyli xidmətçi vardı", - deyən Hildegard məsələnin başqa yönünü də anladıb. Körpə dünyaya gətirməyə razılaşan qızlar əvvəlcə sənəd imzalayıb. Bu sənədi imzalamaqla onlar doğulacaq körpə üzərində bütün hüquqlarından bəri başdan imtina edirdilər. Bu sənədi imzaladıqdan sonra qızlar gənc SS əsgərləriylə tanış olur, onlarla görüşür, söhbət edir, birlikdə gəzib-dolaşır, film seyr edirdilər. Qızlara "ər seçmək" üçün 1 həftə vaxt verilib. Qızlar tanış olduqları əsgərlərin həqiqi adını bilməyib, onlar başqa adlar altında təqdim olunub. Bu da proqramın tələblərindən biri olub. Əsgərlərlə münasibətdə olduqdan sonra hamilə qalan gənc qadınlar ayrıca bir evə yerləşdirilib, nəzarət altında saxlanılıb, körpə dünyaya gəldikdə 2 həftə onu əmizdirdikdən sonra ondan ayrılıb. Və başqa bir yerə köçürülüb. Daha sonra başqa bir almanla evlənib. Evləndiyi şəxsə proqrama qatılması haqqında danışıb, lakin ondan heç bir etiraz, təpki almayıb. Hildegard bunu "biz bunu nə məqsədlə etdiyimizi bilirdik, ona görə də bundan utanmırdım, çəkinmirdim". Körpələrin həyatı da müəmmalı olub. Onlardan bəziləri düşərgələrə, bəziləri xüsusi uşaq sığınacaqlarına təhvil verilib, xüsusi təlimə cəlb edilib. Onlardan yüksək vəzifəli almanlara övladlığa verilənlər də olub. Lakin bu uşaqlar bioloji valideynlərinin əslində kim olduğunu heç vaxt bilməyiblər. "Libensborn" qadınları isə müharibədən sonra cəmiyyət tərəfindən qəbul edilməyib, qınanıblar. Onların çoxu körpənin atasının müharibədə öldüyü yalanını söyləmək məcburiyyətində qalıb. Bəziləri aşkar şəkildə təqib edilib, küçədə döyülərək təhqirlərə məruz qalıb, hətta kölə kimi çalışdırılıb.

**Məlahət Rzayeva**

## Britni Spirs evini satır

### Bildirilir ki, Spirs malikanədə çox yaşamayıb





**Amerikalı müğənni Britni Spirs atasının himayəsindən ayrıldıqdan sonra həyatına "sıfırdan" başlamağı planlaşdırır.**

**O, Kaliforniyadakı 11,8 milyon dollarlıq evi üçün potensial alıcılar axtarmağa başlayıb.**

**Oxu.az xəbər verir ki, məlumata görə, müğənni malikanəni açıq şəkildə satışa çıxarmayıb. Eyni zamanda, ötən həftə əmlak potensial alıcılara nümayiş etdirilib. Ona 12 milyon dollar qiymət qoyulub.**

**Bildirilir ki, Spirs malikanədə çox yaşamayıb.**

**Məlumdur ki, o, Kaliforniyanın Tauzand Oks şəhərindəki evi 2015-ci ildə 7,5 milyon dollara alıb.**

## Bəbir, canavar, aslan obrazları

### Məşhur brendin yeni kolleksiyası tənqid olundu



**Ötən gün baş tutan "Schiaparelli Couture Spring 2023" şousu birmənalı qarşılanmayıb.**

**Axşam.az xəbər verir ki, təqdimatda modellərin geyindiyi son dərəcə ekstravaqant olan geyimlərin bəzilərinin qorxunc olduğu bildirilib. Brendin yaradıcı direktoru Daniel Rouzberi geyimləri dizayn edərkən Dantenin "Cəhənnəm" əsərindən ilhamlanıb.**

**Bəbir, canavar, aslan obrazları üç mənfinin təcəssümü kimi - şəhvət, tamah və qürur təqdim olunub. Heyvanların başları köpük, qatran və digər süni materiallardan hazırlansa da izləyicilər bunu bəyənməyib. Onlar kolleksiyada süni də olsa, heyvanlardan istifadə olunmasını tənqid ediblər.**

**Podiumda sözügedən libasları təqdim edənlər arasında məşhur supermodellər İrina Şeyk və Naomi Kempbell olub.**



# Türkiyədə qışın ortasında yaz havası

## Temperatur daha da artacaq

**Türkiyədə qış aylarına baxmayaraq, yüksək temperatur müşahidə olunur. Mütəxəssislər, Türkiyədə qlobal istiləşmə ilə əlaqədar iqlim dəyişikliyi səbəbindən yaz havasının qarşıdakı qış aylarında daha çox görünəcəyini proqnozlaşdırırlar.**

Dünyanın ən böyük problemlərindən biri olan insanların yaratdığı qlobal istiləşmə nəticəsində iqlim dəyişikliyi səbəbiylə dünya isti dövrünü yaşamağa başlayıb. Bu il temperaturun artması ilə dünyanın bir çox bölgəsində temperatur rekordları qırılıb.

Havanın temperaturunun hər 10 ildən bir əvvəlki 10 ildən daha yüksək olduğu ölçüldü. Dünyada son 8 il, cihaz əsaslı temperatur ölçmələrinin aparılmasından bəri ən isti 8 il kimi qeydə alınıb.

Dünya miqyasında 2022-ci il tarixdə ölçülən ən isti 5-ci il, Avropada isə 2-ci ən isti il olmuşdur.

"Nature" jurnalında dərc olunan məqalədə Qrenlandiyanın şimal hissəsində temperaturun 20-ci əsrlə müqayisədə 1,5 dərəcə Selsi artdığı, termometrlərin isə son 1000 ilin ən yüksək temperaturunu ölçdüyü qeyd edilib.

"Şərq" türk mediasına istinadən xəbər verir ki, Türkiyə qlobal istiləşmədən təsirlənən ölkələr sırasında olsa da, 2022-ci il əvvəlkilərdən daha isti və daha quru olub. 2022-ci ilin dekabr ayı temperaturların mövsüm normalarından yüksək olması səbəbindən son 52 ilin "ən isti dekabrı" olaraq qeydə alınıb.

Yanvar ayında bir çox əyalətdə havanın temperaturu mövsüm normalarından yüksəkdir. Bu, gözlənilən yağıntının baş verməsinin qarşısını alır və quraqlığa səbəb olur.

Mütəxəssislər Türkiyədə qlobal istiləşmə ilə əlaqədar iqlim dəyişikliyi səbəbindən yaz havasının qış aylarında daha çox müşahidə ediləcəyini bildirirlər.

**Turan**

## Kanada qaranlıq keçmişi ilə üzləşir

### Yerlilərə əlavə 2 milyard dollar təzminat ödəniləcək



**Mədəni soyqırımı üçün üzr istəyən və 20 milyard dollar təzminat ödəməyə razı olan Kanada bu dəfə yerlilərin mədəni itkiləri üçün 2 milyard dollar ödəyəcək.**

"TRT Haber"in məlumatına görə, yerli əhalinin öz mədəniyyətini unudub xristian olması üçün kilsə məktəbləri açılıb. 150.000-dən çox uşaq ailələrindən ayrı yataqda qalmağa məcbur olub.

Rəsmi rəqəmlərə görə, 157 illik təqiblər zamanı ən azı 6 min uşaq həyatını itirib. Lakin məktəb həyətlərində görünən kütləvi məzarlıqlar və qeydiyyatsız uşaqlar real rəqəmin daha çox olduğunu deməyə əsas verir.

Kanada hökumətinin 2008-ci ildə bu qeyri-insaniliyə görə rəsmən üzr istəməsindən sonra iddia qaldırıldı.

Hökumət kilsə məktəblərində ölən uşaqlar üçün 20 milyard dollar ödəməyə razılaşıb.

Kanada hökumətinə qarşı mədəni soyqırımı ittihamı ilə 2012-ci ildə daha bir iddia qaldırılıb.

Bu dəfə hökumət 2 milyard dollar təzminat qəbul edib. Kompensasiyanın ödənilməsi üçün qərar məhkəmə tərəfindən də təsdiqlənməlidir.

Kanadadakı kilsə məktəblərinin qaranlıq tarixi 2021-ci ildə bu məktəblərdən birinin bağçasında qeydə alınmayan 751 uşağın kütləvi məzarlarının tapılması ilə üzə çıxıb. Bunun üzərinə bütün məktəblərin bağçalarında detektorlarla axtarışa başlanılıb. Ötən həftə bu məktəblərdən birinin bağçasında kütləvi məzarlıq aşkar edilib. Qəbirdə 171 uşağın dəfn edildiyi güman edilir.

**Turan**

## Pomidorun faydaları çoxdur

### Bu tərəvəz döş xərçənginin qarşısını alır



**Pomidor badımcankimilər fəsiləsindəndir. "Şərq" "NTV"-yə istinadən xəbər verir ki, tərkibində dəmir, kalium, kalsium, fosfor mineralları və A, B, C vitaminləri mövcuddur.**

C vitamini ilə zəngin olduğu üçün pomidor immunitet sistemini gücləndirir. Qripə bənzər virus xəstəliklərdən qoruyur. Mədə və bağırsaqların nizamlı işləməsini təmin edir. Qəbizliyi aradan qaldırır. Xərçəng və ürək xəstəliklərinə qarşı mübarizədə effektivdir. İnsult riskini minimuma endirir. Xolesterolu azaldır və yağ turşularını balanslaşdırır. Öd və böyrək daşlarını azaltmağa kömək edir.

Pomidorun tərkibindəki likopen ağciyər, uşaqlıq yolu, prostat, döş xərçənginə qarşı qoruyucu xüsusiyyətə malikdir. Kalorisi çox az olduğuna görə pəhriz saxlayanların əvəzolunmaz tərəvəzidir. Dəriyə təravət bəxş edir.

Tərkibindəki likopendən faydalanmaq üçün qabığını soymadan yemək tövsiyə olunur.

**Sücayət Mehti**